**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ÇAR RUSİYASI VƏ ERMƏNİLƏRİN AZƏRBAYCAN TORPAQLARINDA DÖVLƏT YARATMAQ FƏALİYYƏTİ

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Güntəkin Cəmil qızı Nəcəfli**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**İsmayıl Muxtar oğlu Hacıyev**

tarix elmləri doktoru, professor
**Yavuz İlhami oğlu Aslan**

tarix elmləri doktoru, professor
**Tofiq Teyyub oğlu Mustafazadə**

tarix elmləri doktoru, professor
**Nurulla Arif oğlu Əliyev**

Azərbaycanın Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Vətən tarixinin az öyrənilmiş, qaranlıq qalmış səhifələrinin araşdırılması tarixçilərimizin qarşısında duran mühüm vəzifələrdəndir. Bu baxımdan çar Rusiyası hakimiyyət orqanlarının və ermənilərin Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq üçün əsrlər boyu düşünülmüş və planlı şəkildə həyata keçirilən fəaliyyətlərinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

Sovet dövrü cüzi rusdilli tədqiqatlarda məsələnin bəzi məqamlarına toxunulsa da, Azərbaycan tarix elmində bu problem öyrənilməmişdir. Bundan istifadə edən erməni tarixçiləri "Şərqi Ermənistan" adlandırdıqları tarixi Azərbaycan torpaqlarının və bu torpaqlarda mövcud olan xristian məliklərinin bütün tarixini mənimsəyərək onu dünya tarix elmində "Ermənistan tarixi" kimi təqdim edə bilmişlər.

Yalnız Azərbaycan siyasi müstəqilliyini bərpa etdikdən sonra aparılan tədqiqatlarda bu qeyri-elmi konsepsiyanın heç bir elmi əsası olmadığı, saxta müddəalardan ibarət olduğu, tarixi reallığın təhrif edildiyi iddiaları ortaya qoyuldu. Aparılan tədqiqatlara baxmayaraq bu məsələ xüsusi tədqiq edilməyib və bir sıra vacib problemlər tam araşdırılmayıb. Xüsusi elmi-siyasi əhəmiyyət daşıyan bu problemlə bağlı yeni tədqiqatlara ehtiyac vardır. Bu baxımdan, təqdim olunan dissertasiya işi xüsusi aktuallıq kəsb edir.

XVIII əsr və XIX əsrin birinci sülsündə çar Rusiyası tərəfindən daim himayə olunmuş ermənilər, XIX əsrin ikinci yarısında böyük güclər tərəfindən Osmanlı imperiyasına qarşı ortaya atılmış süni "erməni məsələsi" çərçivəsində güclü təzyiq vasitəsinə çevrilmişdilər.

Böyük dövlətlər həmçinin Cənubi Qafqazda öz mövqelərini saxlamaq, iqtisadi və siyasi maraqlarını təmin etmək üçün hər zaman "erməni kartından" istifadə etdilər. Təəssüf ki, bu gün də Cənubi Qafqazla, əsasən də neft-qaz ehtiyatları ilə zəngin olan Azərbaycanla bağlı ənənəvi siyasət davam etdirilir. Havadarları tərəfindən hərtərəfli müdafiə olunan ermənilər 30 ilə yaxın işğal altında saxladıqları Azərbaycan ərazisində ikinci bir erməni dövləti yaratmağa çalışırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə bütün

dünyaya birmənalı şəkildə və qətiyyətlə bəyan etmişdir ki, ermənilər İrəvan və ətraflarını əhatə edən Azərbaycan torpaqlarında bir dəfə özlərinə dövlət yaratmışlar. Azərbaycan öz ərazisində təcavüzkar Ermənistana ikinci erməni dövləti yaratmağa imkan verməyəcəkdir. [1]

Doğma Qarabağımızı düşmən işğalından azad etmək uğrunda dövlətimizin diplomatik, ardıcıl mübarizəsi və Azərbaycan ordusunun bir ay yarım ərzində göstərdiyi rəşadət şanlı bir tarix yaratdı. Qarabağın azadlığı uğrunda gedən Vətən müharibəsində başlanan Azərbaycan torpaqlarının bütövləşməsi tarixi 19-20 sentyabr 2023-cü ildə ordumuzun Qarabağda apardığı anti-terror tədbirləri nəticəsində başa çatdı. Və 15 oktyabr 2023-cü ildə Qarabağ xanlığının qurucusu Pənahəli xan tərəfindən əsası qoyulmuş xanın kəndində - Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağı dalğalandı.

Cənubi Qafqazda erməni dövləti yaratmaq ideyası çar Rusiyasının həqiqi planı deyildi. İmperiya özünün strateji planlarını reallaşdırmaq, Cənubi Qafqazı, o cümlədən Azərbaycan xanlıqlarını işğal etmək və bu torpaqlarda möhkəmlənmək üçün ermənilərdən bir alət kimi istifadə edirdi. Dissertasiyada əsas məqsəd bu fəaliyyətlərin meydana çıxma səbəbləri, xüsusiyyətləri, mərhələləri və nəticələrini ilkin qaynaqlar əsasında tədqiq etməkdən ibarətdir. Digər mühüm məqsəd erməni tarixşünaslığının prioritet mövzusuna çevrilmiş – tarixi Azərbaycan torpaqlarının "əsrlər boyu ermənilərə məxsus olması", "ermənilərin bu torpaqlarda çoxluq təşkil etməsi" kimi saxta iddiaların; müasir Ermənistan Respublikası ərazisinin və Qarabağın dağlıq hissəsinin mənsubiyyəti məsələsinə qeyri-obyektiv yanaşmanın; Azərbaycan torpaqları hesabına erməni dövləti qurmaq məqsədilə yaradılan saxta erməni tarixinin uydurma faktlara söykəndiyini, heç bir əsası olmadığını ilkin mənbələr əsasında sübuta yetirmək və ifşa etməkdən ibarətdir.

Azərbaycan sovet dövrü tədqiqatçılarından A.Əbdürəhmanov, H.Abdullayev, V.Leviatov, F.Əliyev[2] və b. əsərlərində XVIII əsrin

[1] https://president.az/az/articles/view/11828 (28.05.2018)

[2] Абдурахманов, А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана / А.Абдурахманов. – Баку: "Изд. АН Азерб., ССР", – 1964. – 98 с.; Абдуллаев, Г. Азербайджан в XVIII веке и взаимоотношения его в Россией / Г.Абдуллаев – Баку: "Изд. АН Азерб., ССР", – 1965. – 621 с; Левиатов, В.

iqtisadi, ictimai-siyasi vəziyyəti, Azərbaycanın Rusiyanın Şərq siyasətində tutduğu yer və s. məsələlər ətraflı tədqiq edilsə də, problem toxunulmamış qalır.

Ötən əsrin sonlarından başlayaraq dövrün ideologiyasına xidmət etməyən, tarixi hadisələri daha obyektiv təqdim edən tarixi əsərlər yazılmağa başlandı. C.Mustafayevin həmin dövrdə çap olunmuş tədqiqatında[3] XVIII əsrin sonlarında rus qoşunlarının Azərbaycana hərbi yürüşləri ilkin qaynaqlar əsasında tədqiq edilmiş və Dərbəndin tutulmasında ermənilərin fəaliyyəti göstərilmişdi.

S.Kərimovanın təqdim etdiyi monoqrafiyasında[4] isə ilk dəfə olaraq XVIII-XIX əsrlərdə çar Rusiyanın Cənubi Qafqazda işğalçılıq siyasətinin formalaşmasında ermənilərin rol oynadığı tədqiq edilmişdir.

XVIII əsrdə Rusiya imperiyasının Cənubi Qafqaz, o cümlədən Azərbaycanla bağlı işğalçılıq siyasətinin işıqlandırılmasında T.Mustafazadənin tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. Müəllifin ilkin qaynaqlar əsasında ərsəyə gətirdiyi "XVIII əsrin I qərinəsində Azərbaycan və rus-türk münasibətləri"[5] adlı əsərində I Pyotrun Xəzərsahili vilayətlərə yürüşü ilə bağlı hadisələr ətraflı işıqlandırılmış və bu yürüşlərdə çar Rusiyasının işğalçılıq siyasətində ilk dəfə olaraq dini-etnik amillərin rolu göstərilmişdir. Müəllifin digər tədqiqatında[6] XVIII əsrin 80-ci illərində İranda hakimiyyəti ələ keçirən Əlimurad xanla Rusiya hakim dairələrinin Azərbaycan torpaqlarını bölüşdürmək haqqında olan sövdələşmələrdə erməni dövləti yaradılması

---

Очерки из истории Азербайджана в XVIII веке / В.Левиатов. – Баку: "Изд. АН Азерб., ССР", – 1948. – 228 с.; Алиев, Ф. Миссия посланника русского государства А.П.Волынского в Азербайджане (1716-1718) / Ф.Алиев. – Баку: Элм, – 1979. – 122 с; Алиев, Ф. Азербайджано-русские отношения в XV-XIX вв / Ф.Алиев. – Баку: Элм, – 1985. – 158 с.

[3] Мустафаев, Дж. Северные ханства Азербайджана и Россия. (конец XVIII-начало XIX в) / Дж.Мустафаев. – Баку: Элм, – 1989. –128 с.

[4] Kərimova, S. Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu / S.Kərimova. – Bakı: Azərnəşr, – 1995. –192 s.

[5] Мустафазаде, Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. / Т.Мустафазаде. – Баку: Элм, – 1993. – 240 с.

[6] Mustafazadə, T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri / T.Mustafazadə. – Bakı: Elm, – 2002. – 372 s.

məsələsinə də yer ayrılmışdır. T.Mustafazadənin son dövr tədqiqatlarında[7] Cənubi Qafqazda erməni amili, Avropa diplomatiyasında "erməni məsələsi"nin ortaya çıxması və s. məsələlər işıqlandırılmış, həmçinin, I Pyotrun qəyyumluğu ilə Cənubi Qafqazda gürcü-erməni çarlığı yaratmaq cəhdləri və II Yekaterina hökumətinin Cənubi Qafqaz siyasətinin həyata keçirilməsində yerli xristianların rolu kimi məsəllərə də aydınlıq gətirilmişdir.

S.Hacıyeva və G.Məmmədovanın tədqiqatlarında[8] müvafiq olaraq XVIII əsrin 80-ci illərində Rusiyanın İranda hakimiyyəti ələ keçirmiş Əlimurad xanla sövdələşməsi zamanı ermənilərə dövlət yaradılması planları və V.Zubovun Azərbaycana hərbi yürüşü ilə bağlı arxiv materialları əsasında yeni məlumatlar verilmiş və problemə yeni aspektdən yanaşılmışdır.

XX əsrin sonu və XXI əsrin əvvəllərində işıq üzü görən bir sıra tədqiqatlarda erməni tarixçilərinin Azərbaycana əsassız ərazi iddialarının ifşa edilməsi, ermənilərin kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürülməsi və digər mühüm məsələlərlə bağlı elmi araşdırmalar[9] ortaya qoyulmuşdur. Həmin dövr tədqiqatlarından

---

[7] Mustafazadə, T. Avropa diplomatiyasında "erməni məsələsi" və ya Türkiyəni bölüşdürmək planı (Rusdilli sənədlər əsasında) / T.Mustafazadə. – Bakı: Turxan, – 2015. – 352 s.; Mustafazadə, T. Erməni məsələsi"ndən erməni terrorizminə / T.Mustafazadə. – Bakı: Turxan, – 2016. – 140 s.

[8] Гаджиева, С. Азербайджан во внешней политике правительства Екатерины II / С.Гаджиева. – Баку: Элм, – 2004. – 148 с.; Мамедова, Г. О походе В.Зубова в Азербайджан 1796 г. / Г.Мамедова. Баку: Элм, – 2003. – 91 с.

[9] Алиев, И. Нагорный Карабах: история, факты, события / И.Алиев. – Баку: Элм, – 1989. – 104 с.; Вердиева, Х. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX начале XX вв.) / Х.Вердиева. – Баку: Алтай, – 1999. – 298 с.; Köçərli, T. Qarabağ / T.Köçərli. – Bakı: Elm, – 2016. – 472 s.; Вердиева, Х. «Родословная» армян и их миграция на Кавказ с Балкан /. Х.Вердиева, Р.Гусеин-заде. – Баку: Елм, – 2003. 168 с.; Кулиева, В. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в конце XIX-начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений / В.Кулиева. – Баку: Нурлан, – 2003. – 371 с.; Xəlilli, X. Qarabağ: etnomənəvi inkişaf tarixi / X.Xəlilli. – Bakı: Günəş, – 2006. –79 s.

V.Arzumanlı və N.Mustafanın birgə ərsəyə gətirdiyi əsərini[10] xüsusi qeyd etmək yerinə düşər. Monoqrafiyada ilk dəfə olaraq yığcam şəkildə ermənilərin Azərbaycan torpaqları hesabına dövlət yaratmaq səylərinə toxunulmuşdur.

Ümumiləşmiş Azərbaycan tarixlərində[11] də mövzu ilə bağlı müəyyən məqamlara toxunulmuşdur.

V.Umudlu və A.Məmmədlinin[12] əsərlərində Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və Azərbaycan xalqının müstəmləkəçilik əleyhinə apardığı mübarizəsi, ermənilərin Cənubi Qafqaza gəlmə olduqları və s. məsələlər araşdırılmışdır.

Y.Mahmudov və K.Şükürovun Qarabağ və Naxçıvan tarixi ilə bağlı birgə hazırladıqları tədqiqatlarda[13] bölgənin çar Rusiyası tərəfindən işğalı və ermənilərin köçürülərək burada məskunlaşdırılması, xristian məliklərin tarixi ilə bağlı real faktlar ortaya qoyulmuşdur. K.Şükürovun Türkmənçay müqaviləsinin tarixinə həsr olunmuş monoqrafiyasında ermənilərin Rusiyanın işğal etdiyi Azərbaycanın ərazisinə köçürülməsi və onun nəticələri təhlil edilmişdi. Müəllifin son dövr tədqiqatlarında Azərbaycan torpaqlarında Ermənsitan dövlətinin meydana gəlməsi məsələləri təhlil edilib, onlara dair erməni tarix ədəbiyyatının müddəalarının heç bir elmi əsası olmadığı, siyasi məqsədlər güdən bir mif olduğu qeyd olunmuşdur. [14]

---

[10] Arzumanlı V. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq / V.Arzumanlı, N.Mustafa. – Bakı: Qartal, – 1998. – 280 s.

[11] Azərbaycan tarixi (uzaq keçmişlərdən 1870-ci ilə qədər). (S.Əliyarlının redaktəsi ilə.) – Bakı: Azərbaycan, – 1996. – 872 s.; Azərbaycan tarixi (7 cilddə), (XIII-XVIII əsrlər). – Bakı: Elm, – III cild – 1999. –584 s.; Azərbaycan tarixi (7 cilddə), (XIX əsr).– Bakı: Elm, – IV cild – 2000. – 508 s.

[12] Umudlu, V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828) / V.Umudlu. – Bakı: Elm, – 2004. – 184 s.; Məmmədli, A. Ermənilərin gerçək tarixi / A.Məmmədli. – Bakı: Elm, – 2005. – 436 s.

[13] Mahmudov, Y. Qarabağ. Real tarix. Faktlar. Sənədlər / Y.Mahmudov, K.Şükürov. – Bakı: Elm, – 2005. – 380 s; Mahmudov, Y. Naxçıvan: tarixi və abidələri / Y.Mahmudov, K.Şükürov. – Bakı: Təhsil, – 2007. – 216 s.

[14] Şükürov, K. Türkmənçay – 1828: Tarixi xronika (ixtisarla) / K.Şükürov. – Bakı: Çaşıoğlu, – 2006. – 188 s.; Yenə onun: Azərbaycan torpaqlarında Ermənistan dövləti necə yaradıldı: Tarixi, nəticələri və Azərbaycanın müasir baxışı // – Xalq qəzeti, – 2019, 23, 24, 26, 30 aprel, 19 may.; Yenə onun: Bir erməni tarix mifinin də

Digər tədqiqatçı M.Süleymanov əsasən rusdilli və farsdilli ədəbiyyatlar əsasında yazdığı əsərində[15] erməni millətçiliyinin və təcavüzkarlığının köklərini araşdırmış, ermənilərin Azərbaycan torpaqlarına olan əsassız iddialarının mənbəyinə aydınlıq gətirmişdir.

A.Abbasovanın tarix üzrə fəlsəfə doktoru adı almaq üçün təqdim etdiyi dissertasiyasında[16] isə I Pyotrun Cənubi Qafqaza qarşı işğalçılıq siaysətində dini-etnik amillər araşdırılmışdır.

Y.Mahmudovun rəhbərliyi ilə hazırlanmış Tarix İnstitutunun kollektiv əməyinin məhsulu olan İrəvan xanlığının tarixi ilə bağlı monoqrafiyanı[17] xüsusilə qeyd etmək lazımdır. Kitabda İrəvan xanlığının əzəli Azərbaycan torpağı olması, çar Rusiyasının işğalı və ermənilərin köçürülüb gətirilməsi, Erməni vilayətinin yaradılması, azərbaycanlılara məxsus tarixi yer adlarının kütləvi şəkildə dəyişdirilərək erməniləşdirilməsi və s. bu kimi mühüm məsələlər ilkin mənbələrə əsaslanan təkzibedilməz faktlarla işıqlandırılmışdır.

Q.Hacıyev, Z.Hacıyeva, R.Hüseynzadənin[18] tədqiqatlarında da erməni saxtalaşdırmaları tutarlı faktlarla ifşa edilmişdir.

Y.Mahmudovun uydurma "erməni tarixi"ni tutarlı faktlarla ifşa edən əsərində [19] tarixdə heç zaman "Böyük Ermənistan" adlı dövlət qurumunun olmadığı, bu anlayışın Azərbaycan, Türkiyə və Gürcüstan torpaqlarına sahib çıxmaq məqsədilə erməni saxtakarları tərəfindən sonradan uydurulduğu xüsusilə vurğulanır.

---

sonu: İsarail Ori və erməni azadlıq hərəkatı haqqında // Qarabağ Azadlıq Təşkilatı "Qarabağ dünən, bu gün və sabah" / 19-cu elmi-əməli konfransın materialları. Bakı: – 2020. – 214 s. – s.117-121.

[15] Süleymanov, M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən / M.Süleymanov. – Bakı: Hərbi nəşriyyat, – 2008. – 398 s.

[16] Abbasova, A. XVIII əsrdə Rusiyanın Cənubi Qafqaza qarşı işğalçılıq siyasətində dini-etnik amillər: / Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı /. – Bakı: 2009. – 27 s.

[17] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi / Y.Mahmudov [və b.]. – Bakı: Çaşıoğlu, – 2009. – 576 s.

[18] Hacıyev Q. Qarabağ tarixi / Q.Hacıyev. – Bakı: Təknur, –2014. – 228 s.; Hacıyeva Z. Raffi və onun Qarabağ haqqında mifik məlumatları // RU Xəbərlər №1. ─ Bakı, 2013. ─ s.65-70.; Гусейнзаде, Р. Кавказ и армяне / Р.Гусейнзаде. – Баку: Печатный дом «Апастрофф», – 2014. – 486 с.

[19] Mahmudov, Y. "Real tarix və "Böyük Ermənistan uydurması" / Y.Mahmudov. – Bakı: Turxan, – 2014. – 144 s.

İ.Hacıyev tədqiqatında[20] qondarma Erməni vilayətinin yaradılması ilə gələcək Ermənistanın təməli qoyulduğunu və bununla da I Pyotrdan başlayaraq ermənipərəst siyasətin həyata keçirildiyini təsdiq etmişdir.

Problemin araşdırılması zamanı Türkiyə tarixçilərinin əsərlərinə də müraciət edilmişdir. F.Kırzıoğlunun və İ.Hərəminin əsərində[21] XVI əsrin sonlarında baş vermiş Səfəvi-Osmanlı müharibələri zamanı tutulan Azərbaycan torpaqlarına Osmanlı ərazisindən ermənilərin və digər etnosların köçürülüb yerləşdirilməsi faktı öz əksini tapmışdır. Digər tədqiqatçı E.Urasın geniş həcmli monoqrafıyasında[22] əsas diqqət "erməni məsələsi"nin beynəlxalq aləmdə gündəmə gətirilməsinə yönəlsə də, erməni dövləti yaradılması məqsədilə tərtib edilən layihələrə də müəyyən yer ayrılmışdır.

K.Beydillinin məqaləsində[23] 1828-1829-cu illərdə ermənilərin Şərqi Anadoludan Rusiyaya köçürülməsi işıqlandırılsa da, ermənilərin köçürüldüyü ərazilərin işğal edilmış Azərbaycan torpaqları olduğu bir dəfə də olsun qeyd edilməmişdir.

Mövzuya dair rusdilli tədqiqatlardan ilk növbədə Rusiya qoşunlarının Cənubi Qafqaza yürüşlərinin bilavasitə iştirakçısı olmuş diplomatlar, hərbçilər və digər rəsmi şəxslərin əsərlərini qeyd etmək yerinə düşər.[24] Bu tədqiqatlarda I Pyotrun və V.Zubovun başçılığı ilə

---

[20] Гаджиев, И. Территориальные притязания и кровавы преступления е армян против Азербайджана / И.Гаджиев. – Москва: «Столица», – 2016. – 182 с.

[21] Kırzıoğlu, F. Osmanlıların Kafkas ellerini fethi (1451-1590) / F.Kırzıoğlu. . – Ankara: "Türk Tarih Kurumu Basımevi", – 1976. – 552 s.; Rəhimizadə, İbrahim (Hərəmi). Osmanlı ordusunun Azərbaycana yürüşləri (XVI əsrin sonu). (Nəşrə hazırlayan, ön sözün və şərhlərin müəllifi: Rauf Şeyxzamanlı). / İ.Rəhimizadə. – Bakı, – "Nurlan", – 2007. – 218 s.

[22] Uras, Esat. Tarıhte Ermenıler ve Ermenı Meselesı. İstanbul, 1987. / E.Uras. – İstanbul: "Belge yayınları", – 1987. – 798 s.

[23] Beydilli K. 1828-1829 Osmanlı-Rus savaşında Doğu Anadoludan Rusiyaya köçürülen ermeniler // – Ankara: Türk Tarih Kurumu, Belgeler, Türk Tarih Belgeleri Dergisi, – 1988, cilt XIII, sayı: 17'den ayrı basım, – s. 365-478.

[24] Утверждение русского владычества на Кавказе [в 3-х тт.] / Под ред. В.Потто. –Тифлис: Типография Я.И. Либермана, – т 1. – 1902. – 308 [X] с.; Тифлис: Типография Я.И. Либермана, – т 2. – 1902. – 527 [XV] с.; Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях: [в 5 томах] / В.Потто. – Санкт-Петербург: Тип. Е.Евдокимова, – 1887. Том II, –

rus qoşunlarının Azərbaycana yürüşləri, ermənilərin ikiüzlü fəaliyyəti və s. məsələləri izləmək mümkündür. S.Solovyovun I Pyotrun fəaliyyətinə həsr olunmuş əsərinin[25] VI bölməsi "I Pyotr Xəzər dənizində" adlanır. G.Ezovun əsərindən geniş şəkildə faydalanan müəllif burada I Pyotrun Xəzərsahili bölgələrə yürüşü, xristian əhali, xüsusilə ermənilərlə əlaqəsi və s. məsələlərə geniş yer vermişdir.

İstər I Pyotrun, istərsə də varislərinin zamanında Rusiya imperiyasının Cənubi Qafqaza müdaxiləsi, dövrün beynəlxalq vəziyyəti sovet dövrü bəzi rusdilli müəlliflərin əsərlərində[26] tədqiq olunsa da, bu müdaxilənin əsl mahiyyəti göstərilmir, əksinə imperiyanın işğalçılıq siyasətinə haqq qazandırılır. Məsələn, V.Lıstsov I Pyotrun Xəzərsahili bölgələrə yürüşünün iqtisadi və siyasi səbəblərini ətraflı tədqiq etmiş, hətta əsərin III fəslini "Rusiyanın qəyyumluğu altında gürcü-erməni çarlığının yaradılması" adlandırmışdı.

Sovet dövrü müəllifləri içərisində O.Markova təqdim etdiyi monoqrafiyasında[27] zəngin arxiv sənədləri əsasında XVIII əsrdə Rusiyanın Cənubi Qafqaz siyasətini və dövrün beynəlxalq vəziyyətini işıqlandırmışdır. Əsərdə ermənilərə dövlət yaradılması ideyasının məhz II Yekaterina sarayında hazırlanmasını izləmək mümkündür. Lakin dövrün tələbinə uyğun olaraq çar Rusiyanın işğalçılıq siyasəti, onun əsl məqsədi açılmamış qalır.

Sovet dövründə rus dilində yazmış erməni müəlliflərinin əsər-

---

821 с.; В.Потто. – Санкт-Петербург: Тип. Е.Евдокимова, –1888. Том III, – 728 с; Бутков, П. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. [В 3-х частях] / П.Бутков. – Санкт-Петербург: Тип. имп. АН, – ч. 1. – 1869. – 548 с.; П.Бутков. – Санкт-Петербург: Тип. имп. АН, – ч 2. – 1869. – 601 с.; П.Бутков. – Санкт-Петербург: Тип. имп. АН, – ч 3. – 1869. – 620 с.; Дубровин, Н. История войны и владычества русских на Кавказе. [в 6- ти тт.] / Н.Дубровин. – Санкт Петербург: Тип. И.Н. Скороходова, – т. III. – 1886. – 550 с.

[25] Соловьев, С. Чтение и рассказы по истории России /. Сост., и вступ. ст. С.С.Дмитриева; Комм. С.С.Дмитриева и Л.П.Дойниковой; ил. В.В.Лукашова – Москва: «Правда», – 1989. – 768 с. и ил.

[26] Смирнов, Н. Политика России на Кавказе XVI-XIX вв /. Н.Смирнов. – Москва: «Изд., социально-экономической литературы», – 1958. – 244 с.; Лысцов, В. Персидский поход Петра I / В.Лысцов. – Москва: «Изд. МГУ», – 1951. – 246 с.

[27] Маркова, О. Россия, Закавказье и международные отношения в XYIII веке / О.Маркова. –Москва: «Наука», – 1966. – 322 с.

lərində[28] XVIII əsrin "çoxəsrlik erməni xalqının tarixində, xüsusilə onun azadlıq mübarizəsində önəmli yer tutduğu", ermənilərin "böyük əraziyə malik dövlətlərinin olduğu" iddia edilərək Azərbaycanın əzəli torpaqları "qədim erməni ərazisi" kimi təqdim edilir. XVIII əsrin 80-ci illərində bölgədə baş vermiş hadisələr, ermənilərin Rusiya ilə əlaqələri və Azərbaycan torpaqlarında dövlət yaratmaq planları A.R.İoannisyanın əsərində[29] geniş şəkildə əks olunmuşdur. Müəllif kitabının sonuna əlavə etdiyi arxiv sənədlərində təqdim olunan onomastik materialları saxtalaşdırmaqdan çəkinməmişdir.

Xanlıqların işğalından sonra Qacarlar dövləti və Osmanlı imperiyasından ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi, onlara xüsusi imtiyazlar verilərək, ən münbit, ən yararlı torpaqlarda yerləşdirilməsi və digər məsələlərin işıqlandırılması zamanı rus dilində yazmış erməni və ermənipərəst rus müəlliflərinin əsərləri[30] də tədqiqata cəlb edilmişdir. Bu əsərlərə tənqidi yanaşılmış və müəlliflərin üzərindən sükutla keçdiyi tarixi faktlara aydınlıq gətirilmişdir.

Sovet imperiyasının dağılması ərəfəsində və ondan sonrakı dövrdə "müəlliflər"[31] Azərbaycan torpaqlarının "tarixi Ermənistan"

---

[28] Арутюнян, П. Освободительное движение армянского народа в первой четверти XVIII века / П.Арутюнян. – Москва: «Изд.-во Академии наук СССР», – 1954. – 504 с.; Галоян. Г. Россия и народы Закавказья / Г.Галоян. – Москва: «Мысль», – 1976. – 445 с.; История армянского народа / Под.ред. М.Г.Нерсисян – Ереван: «Изд-во Ереванского Унив-та», – 1980. – 460 с.; Иоаннисян, А. Иосиф Эмин / А.Иоаннисян. – Ереван: "Издательство АН Армянской СССР", – 1989. – 174 с.

[29] Иоаннисян, А. Россия и Армянское освободительное движение в 80- х г. XVIII веке // А.Иоаннисян. – Ереван: «Изд-во АН Арм. ССР», – 1947. – 159 с.

[30] Ениколопов, И. Грибоедов и Восток / И.Ениколопов. – Ереван: «Айпетрат», – 1954. – 200 с.; Грибоедов, А. Записка о переселении армян из Персии в наши области // Сочинения в двух томах, т.2. – Москва: Издательство «Правда», – 1971. – 368 с.; Тавакалян, Н. Переселение армян из Персии и Турции в Закавказье после присоединения Восточной Армении к России // Историко-филологический журнал АН Арм. ССР. – Ереван: «Изд-во АН Арм. ССР», – 1978, №3(82), – с.26-40; Тунян, В. Восточная Армения в составе России (1828-1853 гг.) / В.Тунян. – Ереван: «Айастан», –1989. – 171 с.

[31] Манукян, Е. Процесс консолидации армянского народа в Восточной Армении в конце 20-ых годов XIX века / автореферат диссертации кандидата

kimi qələmə verilməsi konsepsiyasına sadiq qalaraq, Qarabağın xristian məliklərinin tarixini də mənimsəyərək özlərinə saxta tarix yaratmışlar.

Mövzunun tədqiqi zamanı ermənidilli əsərlərdən də istifadə edilmişdir. Erməni keşişi Yegişe Geğamyanın əsəri 1915-ci ildə erməni dilində, 1917-ci ildə isə ixtisarla Azərbaycan türkcəsində Bakıda nəşr edilmişdir.[32] Əsər Rusiya imperiyasının Şərq siyasətinin həyata keçirilməsində ermənilərdən bir alət kimi istifadə olunması, Şərqi Anadolunun işğalı zamanı (1828-1829) ermənilərin rus ordusuna göstərdiyi "fədakarlıq" və digər məlumatları özündə ehtiva edir.

Sovet dövrü müəlliflərindən Yervand Şahəziz və Vladimr Qriqoryanın əsərləri müvafiq olaraq İrəvan şəhərinin və İrəvan xanlığının tarixinə həsr olunmuşdur.[33] Həmin əsərlərin qayəsi ənənəvi erməni xəstəliyindən yan keçməsə də, müəlliflər bəzi hallarda tarixi həqiqətləri etiraf etməli olmuşlar.

Qədim Albaniya dövlətinin etno-mədəni irsinin qorunub saxlanmasının parlaq təzahürü kimi Qarabağ və Zəngəzurda mövcud olan alban məlikləri tarixinin erməniləşdirlməsi, onların etnik kimliyinin saxtalaşdırılılması XIX əsrin sonlarından başlayaraq bütün ermənidilli tarixşünaslığın aparıcı mövzusu olmuşdur.

---

исторических наук / – Ереван, –1992. – 26 с; Ананян, Ж. Армянский просветитель Иосиф Эмин // – Новая и новейшая история, – 1998, №1, – с.148-163; Тунян, В. «Защитник отечества» – католикос всех армян Нерсес Аштаракеци. 1826-1857 гг. / В.Тунян. – Ереван: «Св. Эчмиадзин», –2007. – 440 с.; Магалян, А. Арцахские меликства и меликские дома в XVII–XIX вв. / А.Магалян. – Ереван: «ВМВ-ПРИНТ», – 2012. – 240 с. + 32 с. илл.; Тунян, В. Пристрастие Азербайджана к истории Армении: мифы и реалие / В.Тунян. – Ереван: «Институт истории», – 2013. – 298 с.; Дадаян, С. К вопросу о Кураксском трактате 1805 года в русско-персидских отношениях и армянстве Арцаха-Карабаха // – Երևան: Մեսրոպ Մաշտոց Լրատու – 2019. – 295 էչ. – с.21-34.

32 Գեղամյան, Է. Հաերի ազատագրական շարժումնէրի ԺԹ դարում / Գեղամյան Է. – Բաքու: – 1915. – 320 էջ.; Geğamyan E. XIX əsrdə erməni azadlıq hərəkatları / E. Geğamyan. – Bakı: "Açıq söz", – 1917. – 150 s. // AMEA Tarix İnstitutunun Elmi Arxivi, İnv: AXC -4152.

33 Յերվանդ Շահազիզ: Հին Երևանը: Երևան: Մելքոնյան Ֆոնդի – 1931 – 262 էջ.; Գրիգորյան, Վ. Երևանի խանությունը 18-րդ դարի վերջում / Վ.Գրիգորյան. – Երևան: ՀՍՍՌ ԳԱ հրատ, – 1958, –228 էջ.

1722-1734-cü illərdə Qarabağda baş verən hadisələr və ayrı-ayrı məlik ailələrinin tarixi Leo adlandırılan Arakel Babayanın “Erməni xalqının tarixi” adlı seçilmiş əsərlərinin (13 cilddə) II və III cildlərində erməni iddialarına uyğun şəkildə təqdim edilmişdir. [34] Aşot Hovhannisyan isə “Erməni azadlıq fikir tarixinin oçerkləri” adlı iki cildlik kitabının I cildində Qarabağ məliklərinin tarixini saxtalaşdıraraq onları “erməni milli azadlıq hərəkatının öncülləri” kimi təqdim etmişdir. [35] Armen Ayvazyanın 2022-ci ildə İrəvanda çap olunan “XVII-XVIII əsrlərdə şərq ermənilərinin demoqrafiyası və 1720-ci illərdə erməni ordusunun sayı” adlı iri həcmli kitabında əsasən “Şərqi Ermənistan” adlandırdığı Azərbaycan torpaqlarında (İrəvan, Naxçıvan, Zəngəzur və Qarabağ) XVIII əsin I yarısında cərəyan edən hadisələr, o cümlədən demoqrafik vəziyyət saxtalaşdırılaraq təqdim edilir.[36]

İngilisdilli müəlliflərdən A.Mürielin və mənşəcə İran ermənisi olan G.Bornautyanın əsərlərində[37] Azərbaycanın tarixi torpaqlarında erməni dövlətinin mövcud olması, İrəvan, Gəncə, Qarabağ və Naxçıvan xanlıqlarının “Şərqi Ermənistan”ın tərkib hissəsi olması iddia edilir. Tədqiqat zamanı bu qərəzli fikirlər ifşa edilmişdir.

Mövzunun dolğun şəkildə tədqiq edilməsi mənbələrsiz mümkün deyildir. Dissertasiyanın tədqiqi zamanı müxtəlif dillərdə olan çap edilmiş və eyni zamanda çap eilməmiş – ilk dəfə tədqiqata cəlb etdiyimiz zəngin arxiv materiallarından istifadə olunmuşdur.

---

[34] Լեո. Հայոց պատմություն. // Լեո. – հ. II: Երևան: Հայաստան Հրատարակչություն – 1967 – 393 էջ.; Լեո: Հայոց պատմություն. // Լեո. – h. III, Երևան: ՀՍՍՌ ԳԱ հրատ., – 1968 – 1120 էջ.

[35] Հովհաննիսյան, Աշոտ. Դրվագներ հայ ազատագրական մտքի պատմության. // Ա. Հովհաննիսյան – Գիրք I, Երևան: – Հայկական ՍՍՌ ԳԱ Հրատարակչություն, – 1957 – 526 էջ.

[36] Այվազյան, Արմեն. Արևելահայության ժողովրդագրությունը XVII–XVIII դարերում և հայոց զորքի թվակազմը 1720-ական թվականներին. // Ա. Այվազյան. – Երևան: ՆՏ Հոլդինգ, – 2022 – 664 էջ.

[37] Atkin, Muriel. Russia and Iran 1780-1828 // M.Atkin. – Minneapolis: University of Minnesota Press, – 1980, – 232 p.; Bournoutian, G. The khanate of Erevan under Qajar rule 1795-1828 // G.Bournoutian. – California and New York: Mazda Publishers in association with Bibliotheca Persica, Costa Mesa, – 1992. – 355 p.

XVIII əsrin ilk qərinəsinin mühüm qaynağı hesab olunan “İcmal dəftərləri”nin[38] rolunu xüsusilə qeyd etmək lazımdır. Dəftərlərin verdiyi məlumatlarda Qarabağ, İrəvan və Naxçıvan bölgələrində yaşayan əhalinin əksəriyyətinin Azərbaycan türkləri olması, Osmanlı-Səfəvi müharibələri zamanı əhalinin məcburən doğma torpaqlarını tərk etməsi və s. mühüm məsələləri izləmək mümkündür. Mövzuya aid müəyyən məsələlərlə bağlı 1702-1728-ci illər alban katolikosu olmuş Həsən Cəlalın,[39] polyak səyyahı Y.Kruşinskinin[40] əsərlərini və “Erməni anonim xronikası”nı[41] da qeyd etmək yerinə düşərdi.

XIX əsrdə qələmə alınmış Qarabağ salnamələrində[42] mövzumuzla bağlı pərakəndə məlumatlara rast gəlinir.

Çap edilmiş qaynaqlar sırasında dövlətlərarası müqavilələr, xarici siyasət aktları, Rusiya arxiv sənədləri və nəşrləri üzrə hazırlanmış toplular[43] araşdırılan dövrün faktlarla zəngin dəyərli məlumatlarını özündə ehtiva edir.

A.A.Bakıxanov adına Tarix İnstitutunun müxtəlif ölkələrin ar-

---

[38] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri // Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov. – Bakı: “Şuşa”, – 2000. – 576 s.; İrəvan əyalətinin icmal dəftəri // Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akd. Z.Bünyadov, t.e.n.H.Məmmədov. – Bakı: “Elm”, – 1996. – 148 s.; Gəncə-Qarabağ əyalətinin icmal, timar ruznamçə və təhvil dəftərləri // Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov. – Bakı: “Nəşriyyat” şöbəsi, – 2023. – 605 s.

[39] Есаи, Хасан Джалалян. Краткая история страны Албанской (1702-1722 гг.) // Перевод с древнеарм. языка Т.Тер-Григоряня. Предисловие и подготовка к изданию академика З.Буниятова. – Баку: «Элм», –1989, – 48 с.

[40] Kurşinski Y. Xristian səyyahın tarixi / Fars dilindən cevirən Şahin Fazil. – Bakı: “Azərnəşr”, – 1993. – 105 s.

[41] Армянская анонимная хроника 1722-1736 гг. / Пер. с турецкого и примечания академика АН Азерб. ССР Буниятова З. – Баку: «Элм», – 1988. – 64 с.

[42] Qarabağnamələr // Tərtib edəni və çapa hazırlayanı A.Fərzəliyev. – Bakı: “Yazıçı”, – 1989. – 192 s.; Qarabağnamələr (ikinci kitab) // Tərtib edəni və çapa hazırlayanı N.Axundov. – Bakı: “Yazıçı”, – 1991. – 450 s.

[43] Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828) // Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri Y.Mahmudov, K.Şükürov. – I cild. – Bakı: “Regionların inkişafı ictimai birliyi”, 2009. – 512 s.; Qafqazda “erməni məsələsi”. Rusiya arxiv sənədləri və nəşrləri üzrə / (3 cilddə). Ön söz: T.Heydərov. Tərtibçi-müəlliflər: T.Heydərov, T.Bağıyev, K.Şükürov. – I cild. 1724-1904. – Bakı: “Elm”, . – 2010. – XX+716 s.

xiv materialları əsasında çap etdirdiyi sənəd topluları[44] Azərbaycan tarixinin xüsusi məqsədlərlə saxtalaşdırılmış səhifələrinin yenidən yazılması üçün əvəzolunmaz mənbələrdir.

Çap olunmuş türkdilli qaynaqlar içərisində Kəmani Mustafa Ağanın "Rəvan Fəthnaməsi"[45] xüsusi yer tutur. Əsərdə 1724-cü il Osmanlı ordusu tərəfindən İrəvan qalasının 90 günlük mühasirəsinin təsviri zamanı baş verən hadisələr mövzumuz üçün əhəmiyyətlidir.

Çap edilmiş çeşidli qaynaqlar sırasında tədqiq etdiyimiz problemlə bağlı rusdilli qaynaqlar daha çox üstünlük təşkil edir. XIX əsrin I qərinəsində baş verən hadisələri işıqlandırmaq üçün Qafqaz Arxeoqrafiya Komissiyası Aktlarının I-VII cildlərinə[46] daxil edilmiş sənədlərdən yararlanmışıq.

Ermənilərin Qacarlar İranından Rusiya imperiyasının işğal etdiyi Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi və köçürmə ilə bağlı rəsmi təlimatlar, göstərişlər və s. məsələlər S.Qlinkanın əsərində[47] öz əksini tapmışdır.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində İrəvan və Naxçıvan xanlıqlarında əhalinin sayını və etnik mənsubiyyətini müəyyən etmək

---

[44] Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri) Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri / Ön söz: Y.Mahmudov. Tərtibçi mətni: G.Nəcəfli. – 1 c. – Bakı: Çaşıoğlu, – 2010. – 508 s.; Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri) Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri / Ön söz: Y.Mahmudov. Tərtibçi mətni: G.Nəcəfli. – I c. – Bakı: Çaşıoğlu, – 2010. – 616 s.; – II c. – Bakı: Çaşıoğlu, – 2012. – 620 s.; Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri) Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri / Ön söz: Y.Mahmudov. Tərtibçi mətni: G.Nəcəfli. – II c. – Bakı: Çaşıoğlu, – 2012. – 408 s.; Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrlər). Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (Azərbaycan Dövlət Tarix Arxivinin sənədləri) / Ön söz: Y.Mahmudov. Tərtibçi mətni: K.Şükürov. – I c. – Bakı: Çaşıoğlu, – 2013. – 752 s.

[45] Kemani Mustafa Ağa. Revan Fethnamesi // M.Münir Aktepe. 1720-1724 Osmanlı-İran münasebetleri. – İstanbul: "İ.Ü.E.F. Yayınları", – 1970. – XVI+90 s.

[46] Акты, собранные Кавказской Археографической Комиссией. В 12-ти тт.– Тифлис: Типография Главного Управления Наместника Кавказского, –тт. 1 - 7. –1866-1878.

[47] Глинка, С. Описание переселения армян адербижанских в пределы России / С.Глинка. – Москва: Типография Лазаревых Института восточных языков, – 1831. – 142 с.

üçün başlıca mənbə Rusiya hökumətinin göstərişi ilə İ.Şopen tərəfindən 1829-1832-ci illərdə tərtib olunan kameral siyahıyaalmadır. Müəllif əldə etdiyi nəticələri 1852-ci ildə nəşr etdirdiyi kitabına[48] daxil etmişdir. Əsərdə təqdim edilən materiallar ermənilərin İrandan və Osmanlı imperiyasından işğal olunmuş İrəvan və Naxçıvan xanlıqları ərazisinə köçürülməsini təsdiq edən qiymətli mənbədir.

1823-cü ildə tərtib edilməsinə baxmayaraq, 1833-cü ildə çap olunmuş "Naxçıvan əyalətinin statistik təsviri" və 1866-cı ildə çap olunmuş "Qarabağ əyalətinin təsviri"[49] də bu qəbildəndir.

Erməni vilayəti təsis edildikdən sonra rus-erməni əlaqələrinin qədim ənənələrə malik olduğunu, ermənilərin Cənubi Qafqazda aborigen etnos olması haqda uydurmalarını ictimaiyyətin beyninə yeritmək üçün ermənilər Rusıyada iri həcmli kitabların nəşrinə başladılar. Erməni xalqının tarixi icmalına dair çoxcildli sənədlər toplusu[50] və erməni müəllifi G.Ezovun çap etdirdiyi sənəd toplusu[51] da belə kitablardandır. Sonuncunun geniş şərh yazaraq təqdim etdiyi topluda 1698-1736-cı illəri əhatə edən 305 sənəd öz əksini tapmışdır. Həmin sənədlərdə Azərbaycan torpaqlarının ələ keçirilməsi və bu torpaqlarda erməni dövləti yaradılması məqsədilə Avropa və Rusiya hökmdarlarına təqdim olunmuş layihələr öz əksini tapmışdır.

XX əsrin ortalarında Matenadaranın fars dilli sənədləri əsasında A.Papazyan erməni və rus dillərində tərtib etdiyi çoxcildli

---

[48] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской империи / И.Шопен.– Санкт-Петербург: тип. Имп. Акад. наук, – 1852. – 1232 с.

[49] Григорьев В. Статистическое описание Нахичеванской провинции / В.Григорьев. – Санкт-Петербург: тип. Деп. внеш. торг., – 1833. – 264 с.; Описание Карабахской провинции, составленное в 1823 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым П-м. – Тифлис, – 1866 // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond № 24, siyahı № 1, iş № 141.

[50] Собрание актов, относящихся к обозрению истории Армянского народа / ч. I, – Москва: «В типографии Лазеревых Института Восточных языков», – 1833. – 391 с.; ч.II, – 1838. – 304 с.

[51] Эзов, Г. Сношения Петра Великого с армянским народам (документы) /. Г.Эзов. – Санкт-Петербург: Типография Императорской Академии Наук, – 1898. – 512 с.

sənədlər toplusu[52] çap olunmuşdur. Topludakı sənədlər XIV-XVI əsrlərdə erməni kilsəsinin müxtəlif yollarla Azərbaycan torpaqlarını ələ keçirməsi prosesini izləməyə imkan verir. Bu sənədlərin davamı (1652-1731; 1734-1797-ci illər) K.Kostiqyan tərəfindən toplanaraq İrəvanda ingilis dilində iki cilddə çap edilmişdir.[53] Biz yeri gəldikcə həmin toplularda verilmiş faktlardan yararlanmış və tariximizlə bağlı yalanları ifşa etmişik.

Sovet hakimiyyəti illərində Rusiyanın müxtəlif arxivlərindən toplanan materiallar əsasında XVIII əsrdə “rus-erməni əlaqələri”nin tarixinə həsr edilmiş çoxcildli sənədlər toplusu Ermənistan EA Tarix İnstitutu tərəfindən çap edilmişdir. Həmin topluların mövzumuza bağlı materialların daxil edildiyi cildlərdən[54] istifadə etmişik. Bu sənədlərin bəziləri G.Ezovun təqdim etdiyi materiallarla eynilik təşkil edir. Buna görə də tədqiqat prosesində hər iki topludan müqayisəli şəkildə istifadə etmişik.

Naxçıvan və İrəvan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalından sonra Cənubi Qafqazda cərəyan edən hadisələr “Şərqi Ermənistanın Rusiyaya birləşdirilməsi” kimi qondarma adla iki cildlik

---

[52] Персидские документы Матенадарана, I. Указы. Выпуск первый, (XV-XVI вв.) / Сост. А.Д.Папазян. – Ереван: «Изд-во АН Арм. ССР», 1956. – 316 с.; Выпуск второй, (1601-1650 гг.) / Сост. А.Д.Папазян. – Ереван: «Изд-во АН Арм. ССР», 1959, – 596 с.; Персидские документы Матенадарана, II. Купчие. Выпуск первый, (XIV-XVI вв.), Сост. А.Д.Папазян. – Ереван: «Изд-во АН Арм. ССР», 1968, – 642 с.

[53] Persian documents of the Matenadaran: decrees, Volume III (1652-1731) / by K.Kostikyan, Yerevan: “Զանգակ”, 2005, – 728 p.; Persian documents of the Matenadaran: decrees, Volume IV (1734-1797) / by K.Kostikyan, Yerevan: “Nairi”, 2008, – 387 p.

[54] Армяно-русские отношения в первой трети XVIII века / Сб. документов. Под редакцией Ашота Иоаннисяна. – т.II. ч.1. – Ереван: «Изд-во АН Арм. ССР», – 1964. – CV(105)+ 396 с.; Армяно-русские отношения в первой трети XVIII века / Сб. документов. Под редакцией Ашота Иоаннисяна. – т.II. ч.2. – Ереван: «Изд-во АН Арм. ССР», – 1967. – 420 с.; Армяно-русские отношения во втором тридцатилетии XVIII века / Сб. документов. Под ред. В.К.Восканяна. – т.III. – Ереван: «Изд-во АН Арм. ССР», 1978.– 409 с.; Армяно-русские отношения XVIII веке. 1760-1800 гг. / Сб. Документов. Под ред. В.К.Нерсесяна. –т.IV. ч.II. – Ереван: «Изд-во АН Арм. ССР», 1990.– 590 с.

sənəd toplusunda öz əksini tapmışdır.[55] Tədqiqat zamanı həmin materiallardan tariximizlə bağlı yalan iddiaların ifşa edilməsi üçün istifadə edilmişdir.

Almandilli mənbələrdən səyyah Kaspar Şillingerin 1716-cı ildə Nürnberqdə (qot şrifti ilə) çap olunan “Persiyaya və Şərqi Hindistana səyahət”[56] əsərinin “Persiyaya səyahət” bölməsində İrəvan bölgəsində yaşayan əhalinin etnik tərkibi ilə bağlı məlumatlar çox qiymətlidir. Digər alman tədqiqatçısı Fredrix Noymanın 1834-cü ildə Leypsiqdə nəşr etdirdiyi “1828-ci ildə İran əyaləti Azərbaycandan miqrasiya olunmuş qırx min erməninin Rusiyaya köçürülməsi tarixi”[57] əsəri S.Qlinkanın yuxarıda qeyd etdiyimiz əsəri ilə oxşarlıq təşkil etsə də fərqli məlumatlar da yer almaqdadır.

Ermənidilli mənbələr sırasında XVIII əsr qaynağı hesab olunan “Cambr”ın[58] erməni dilində olan variantının verdiyi məlumatlar rus dilinə tərcüməsindən[59] daha az manipulyasiyaya məruz qaldığı üçün biz əsasən erməni dilində olan variantdan yararlanmışıq.

Tədqiq etdiyimiz mövzu ilə bağlı sovet dövründə Rusiyanın müxtəlif arxivlərindən əldə edilmiş, hazırda Tarix İnstitutunun Elmi Arxivində qorunub saxlanılan sənədlərdən[60] də yararlanmışıq. Bu

---

[55] Присоединение Восточной Армении к России / Сб. документов. Под ред. Ц.П.Агаяна. – т.I (1801-1813). – Ереван: «Изд-во АН Арм., ССР», –1972. – 716 с.; – т.II (1814-1830). – Ереван: «Изд-во АН Арм., ССР», –1978. –658 с.

[56] Schillinger, F.G. Persianische und Ost-Indianische Reise / F.G.Schillinger – Nürnberg: – 1716. – 15+534 S.

[57] Neumann F. Geschichte der Übersiedlung von vierzigtausend Armeniern, welche im Jahre 1828 aus den persischen Provinz Adarbaidschan nach Russland auswanderten / F.Neumann. – Leipzig: “Weirmann´sche Buchbandlung”, – 1834. – 108 S.

[58] Երեւանցի Սիմէօն. Ջամբռ: Գիրք, որ կոչի յիշակարան արձանացուցիչ, հայելի եւ պարունակող բնավից որպիսութեանց Սրբոյ Աթոռոյս, եւ իւրոյ շրջակայից վանօրէիցն / Ս.Երեւանցի. – Վաղարշապատ, “Էջմիածնի Սուրբ Կաթողիկոսի տպարանը” – ՌՃԻԳ (1773) –304 էջ.

[59] Ереванци С. Джамбр. Памятная книга, зерцало и сборник всех обстоятельств святого престола Эчмиадзина и окрестных монастырей / – Пер. С.С.Малхасянца, под. ред. ис предисловием П.Т.Арутюняна. – Москва: “Восточной литературы”, – 1958. – 402 с.

[60] Rusiyanın İranla Əlaqələri (1762-1773-cü illər) // AMEA, Tarix İnstitutunun Elmi Arxivi, Fond №1795/1; №1795/2; №1795/4; №1795/5.

sənədlərdə çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında fəaliyyətlərini izləmək mümkündür.

Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin (BOA) Xətt-i Humayun fondunun[61] indiyə kimi Azərbaycan tarixşünaslığında istifadə olunmayan çoxsaylı sənədlərindən yararlanmışıq. Qars, Ərzurum, Trabzon, Bayburt və digər bölgələrin məmurları tərəfindən dövlət sarayına ünvanlanan məktublarda ermənilərin Osmanlı imperiyası ərazisindən Azərbaycan torpaqlarına köçürülməsi ilə bağlı qiymətli faktlar əldə edilmişdir.

Rusiya İmperiyası Xarici Siyasət Arxivində (RİXSA) qorunub saxlanılan ilkin qaynaqlara birbaşa müraciət etməyimiz qarşıya qoyulan tədqiqatın obyektiv araşdırılmasına imkan yaradır. Çünki tariximizlə bağlı həmin qaynaqlardakı mühüm faktların çoxu bizə erməni müəlliflərinin əsərlərində ciddi təhriflərlə təqdim edilmişdir. RİXSA-nın 5,[62] 77,[63] 100, [64] 101, [65] 194[66] və 343, [67] saylı fondlarına məxsus sənədlərdən tədqiq etdiyimiz mövzu ilə bağlı qiymətli məlumatlar tədqiqata cəlb edilmişdir.

Tədqiq etdiyimiz mövzu ilə bağlı Rusiya Dövlət Hərbi Tarix Arxivinin 52,[68] 476, [69] 482,[70] və 846[71] saylı fondlarında saxlanılan zəngin materiallardan da istifadə olunmuşdur. Bu sənədlərdə çar Rusiyası və ermənilərin Qarabağ və İrəvan xanlıqları ərazisində erməni dövləti, Dərbənd, Quba və Bakı xanlıqlarına məxsus torpaqlarda isə alban çarlığı yaratmaq fəaliyyətlərini, həmçinin, Qacarlar və Osmanlı dövlətlərinin ərazilərindən ermənilərin kütləvi surətdə

---

[61] Hatt-i Hümayun / Türkiye Cumhuriyeti Başbakanlık Osmanlı Arşivi

[62] Фонд №5, Секретные мнения коллегии иностранных дел / Архив Внешней Политики Российской Империи (АВПРИ)

[63] Фонд №77, – Сношения России с Персией / АВПРИ.

[64] Фонд №100, – Сношения России с Арменией / АВПРИ.

[65] Фонд №110, – Сношения России с Грузией / АВПРИ.

[66] Фонд №194, – Миссия в Персией 1809-1913 гг. / АВПРИ

[67] Фонд №343, – Армянские дела / АВПРИ.

[68] Фонд № 52, – Бумаги Канцелярии князя Потемкина – Таврического, 1788 г. / Российский Государственный Военно-Исторический Архив (РГВИА).

[69] Фонд № 476 – Русско-персидская война 1826-1828 / РГВИА.

[70] Фонд № 482 – Кавказские войны / РГВИА.

[71] Фонд № 846 – Военно-Ученый Архив (ВУА) / РГВИА.

Azərbaycan torpaqlarına köçürülməsi prosesini izləmək mümkündür.

Həmçinin Rusiya Dövlət Qədim Aktlar Arxivinin 9[72], 10[73], 15[74], 23[75], 77[76] saylı fondlarında saxlanılan zəngin materiallardan tədqiq etdiyimiz mövzu ilə bağlı yararlanmışıq.

"Erməni dövləti" anlayışına aydınlıq gətirmək üçün Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin Siyasi arxivinin "Russland-97a" fonduna məxsus sənədlərdən[77] də istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Azərbaycanın XVIII-XIX əsrin əvvəli tarixi, predmeti isə həmin dövrdə həyata keçirilmiş fəaliyyətdir. Seçilmiş mövzunun obyekt və predmetinə uyğun olaraq ilkin qaynaqlar və müxtəlifdilli ədəbiyyatın materialları əsasında çar Rusiyası və ermənilərin Azərbaycanda dövlət yaratmaq fəaliyyəti araşdırılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri:** Müdafiəyə təqdim edilmiş dissertasiya işinin əsas məqsədi indiyədək Azərbaycan tarixşünaslığında xüsusi araşdırma obyekti olmayan problemin – XVIII əsrdə və XIX əsrin I qərinəsində çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyətlərinin – yeni arxiv sənədləri, ermənidilli mənbələr, eləcə də çap olunmuş arxiv sənədləri, Azərbaycan və xarici müəlliflərin əsərləri əsasında kompleks şəkildə araşdırmaq və ermənilər tərəfindən Azərbaycan torpaqlarının erməni torpaqları kimi təqdim edilməsi ilə bağlı saxta iddiaları ifşa etməkdən ibarətdir.

Rusiya imperiyası özünün uzaqgörən strateji niyyətlərini reallaşdırmaq, Azərbaycan xanlıqlarını işğal etmək, bu torpaqlarda möhkəmlənmək, Osmanlı dövləti ilə sərhəddə bufer xristian zolağı yaratmaq üçün ermənilərdən bir alət kimi istifadə etmişdir. Ermənilər

[72] Фонд № 9, – Кабинет Петра I / Российский Государственный Архив Древних Актов (РГАДА).

[73] Фонд № 10 – Разряд X, Кабинет Екатерины II и его продолжение, / РГАДА.

[74] Фонд № 15 – Разряд XV, Дипломатический отдель, / РГАДА.

[75] Фонд № 23 – Разряд XXIII, Кавказские дела, / РГАДА.

[76] Фонд № 77 – Сношения России с Персией, / РГАДА.

[77] Karte. Georgien. – Rußland №97a, R.11054 / – Politisches Archiv des Auswärtigen Ams (PAAA); Telegramm. Pera, den 24. Juni 1918. Der K. Botschafter an Auswärtiges Amt. Nr. 986. – Rußland №97a, R.11050 / PAAA.

isə Azərbaycan torpaqlarına siyasi iddialar irəli sürərək, onun ələ keçirilməsi uğrunda xəyanətkar fəaliyyət göstərmiş, xanlıqlara qarşı mübarizədə vasitəyə çevrilmişlər. Dissertasiyada həmçinin məqsəd bu fəaliyyətlərin meydana çıxma mərhələlərini, səbəb və nəticələrini tədqiq etməkdən, sistemləşdirməkdən ibarətdir.

Tədqiqat işində aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuş və onların həllinə cəhd göstərilmişdir:

- "Erməni dövləti" anlayışının mahiyyəti, tarixdə mövcud olan erməni dövlətinin çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında qurmağı planlaşdırdığı dövlətlə ərazi və hüquqi-siyasi varislik baxımından əlaqəsinin olub-olmamasına aydınlıq gətirmək;
- Qarabağın xristian əhalisinin qriqoryanlaşdırılması, xristian melikləri və onların dövlət qurmaq bazasının olub-olmaması və s. məsələləri işıqlandırmaq;
- Ermənilər tərəfindən Qarabağın Xəmsə məlikliklərinin erməni dövlətçiliyinə aid edilməsi, onların etnik kimliklərinin saxtalaşdırılması və tarixinin mənimsənilməsi faktlarını sübuta yetirmək;
- XVIII əsrin I qərinəsində erməni dövləti yaratmaq ideyasına ilkin təkan verən amilləri müəyyən etmək və Azərbaycan torpaqlarında dövlət yaradılması məqsədilə ermənilər tərəfindən tərtib olunan layihə və planları təhlil etmək;
- I Pyotrun Cənubi Qafqazın işğalında Rusiyanın iqtisadi və strateji maraqlarını həyata keçirmək üçün ermənilərdən yararlanmaq siyasətini tarixi faktlarla sübuta yetirmək;
- XVIII əsrin 60-80-ci illərində Azərbaycan torpaqlarında dövlət yaradılması məqsədilə ermənilər tərəfindən tərtib olunan layihə və planlar, onların məzmun və xüsusiyyətlərinin müəyyən edilməsi;
- XVIII əsrin II yarısında beynəlxalq vəziyyətin çar Rusiyası və ermənilərin Azərbaycan torpaqları hesabına dövlət yaratmaq fəaliyyətlərinə təsirini müəyyən etmək;
- II Yekaterinanın Cənubi Qafqazın işğalında Rusiyanın iqtisadi və strateji maraqlarını həyata keçirmək üçün ermənilərdən yararlanmaq siyasətini və Azərbaycan torpaqlarında xristian dövləti qurmaq planlarını ilkin qaynaqlar əsasında sübuta yetirmək;
- Georgiyevsk traktatının bağlanmasından əsrin sonlarınadək (1783-1800) çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında

dövlət yaradılması məqsədilə hazırladıqları layihə və hərbi yürüş planları və onların xüsusiyyətlərini təhlil etmək;

- Rusiya imperiyasının Şimali Azərbaycan xanlıqlarının işğalı gedişində "erməni amili"ndən yararlanmaq siyasətini müəyyən etmək;
- Tarixi Azərbaycan torpaqlarında Erməni vilayətinin yaradılmasının mahiyyətini və nəticələrini tədqiq etmək;
- Çar Rusiyasının işğal olunmuş Azərbaycan torpaqlarına erməniləri xüsusi məqsədlə kütləvi şəkildə köçürməsi siyasətinin mahiyyətini aydınlaşdırmaq;
- Çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyətlərinin nəticələrini təhlil edib dəyərləndirmək.

**Tədqiqat metodları:** dünya tarix elminin və vətən tarixşünaslığının son nailiyyətləri nəzərə alınaraq tədqiqatda nəzəri yanaşma, qarşılıqlı müqayisə və ümumiləşdirmədən istifadə olunmuşdur. Dissertasiya mövzusu üzərində tədqiqat apararkən bu problemlə bağlı cüzi də olsa məlumat verən qaynaq və tarixi ədəbiyyatdan yararlanmağa çalışılmış, arxiv sənədlərindən informasiya əldə etməklə yanaşı onlar ciddi araşdırılmış, təhlil edilmiş, sənədlərin obyektiv gerçəkliyi nə dərəcədə əks etdirdiyi digər mənbələrdəki məlumatlarla müqayisə edilərək müəyyən olunmuş, mövzu ilə bağlı məsələlərə aydınlıq gətirilməsinə çalışılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Tariximizin son əsrlərinin istənilən bir məqamında ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa olan ərazi iddialarına, əslində çar Rusiyasının Cənubi Qafqazda fəal işğalçılıq siyasəti prizmasından kənarda baxılması qeyri-mümkündür. Erməni tarixçiləri bu iddiaları əsaslandırmaq üçün dövrün sənədlərini məharətlə saxtalaşdıraraq, Azərbaycan xalqının tarixini mənimsəmək, özününküləşdirmək yolu ilə saxta tarix yaratmışlar.

– İsti dənizlərə çıxmaq arzusunda olan Rusiya imperiyasına Türkiyə, İran və Azərbaycan sərhədləri qovuşağında etibarlı dayaq yaratmaq lazım idi ki, əlverişli şərait yetişən kimi həmin ərazidən hərbi plasdarm kimi istifadə edə bilsin. Bu siyasəti reallaşdırmağa çalışan Rusiya imperiyası ermənilərin havadarı rolunda çıxış edərək onlardan vasitə kimi yararlanmışdı.

– Səfəvi dövlətinin zəifləməsindən yararlanan ermənilər məqsədlərini reallaşdırmaq üçün özlərinə uydurma tarix quraşdıraraq, müəyyən planlar və layihələr hazırlayaraq öncə Avropa, sonra isə Rusiya saraylarına yol tapa bildilər. Lakin, XVIII əsrin I rübü – Cənubi Qafqazın Rusiya üçün daha çox iqtisadi və tranzit əhəmiyyət daşıdığı dövrdə başlayan rus işğalları I Pyotrun vəfatı ilə uğursuzluqla nəticələndi.

– XVIII əsrin 60-80-ci illərində ermənilər tərəfindən Azərbaycan xanlıqları və Osmanlı dövlətinin şərq torpaqları hesabına ermənilərə dövlət yaradılması məqsədilə çoxsaylı layihələr tərtib olundu. Ölkənin iri şəhərlərində maddi imkanlar əldə edən ermənilər müxtəlif vasitələrlə Rusiya hakim dairələrində yüksək nüfuza malik şəxslərin etimadını qazanaraq bu planları reallaşdırmağa çalışırdılar.

– XVIII əsrin 80-ci illərindən başlayaraq II Yekaterina hökuməti Azərbaycan torpaqlarında vassal erməni dövləti yaratmaq planını reallaşdırmağa çalışır və hətta gələcəkdə Osmanlı dövləti torpaqları hesabına bu oyuncaq dövləti genişləndirməyi nəzərdə tuturdu. Lakin, 1785-ci ildən Şimali Qafqazda baş verən hadisələr, Azərbaycan xanlarının Osmanlı dövləti tərəfindən dəstəklənməsi çarizmi regionla bağlı işğalçılıq planlarından müvəqqəti əl çəkməyə vadar etmişdi.

– Lakin Osmanlı dövləti ilə bağlanan Yassı müqaviləsi (1791 dekabr) Rusiyanın Cənubi Qafqazda fəaliyyəti üçün böyük imkanlar yaratdı. Çar Rusiyasının Xəzərsahili vilayətləri yenidən zəbt etmək istəyi xeyli sürətləndi. Qarabağda xristian məliklər üçün "milli dövlət", İrəvanda Üçkilsə və onun ətrafında zaman-zaman məskunlaşan ermənilər üçün "Ararat çarlığı", Xəzərsahili bölgələrdə isə "Alban çarlığı" kimi vassal qrumların yaradılması gündəmə gəldi. Lakin, XVIII əsrin 80-ci illərinin sonundan başlayaraq İranda hakimiyyəti ələ alan Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaz uğrunda mübarizəyə qoşulması vəziyyəti xeyli gərginləşdirdi.

– Nəhayət, II Yekaterina hökuməti 1796-cı ilin yazında Valerian Zubovun başçılığı ilə rus qoşunlarını Azərbaycana göndərdi. General Zubova "Qarabağ xanını devirib hakimiyyəti xristian məliklərə vermək" kimi məxfi təlimat da verilmişdir. Lakin, 1796-cı il noyabrın 6-da II Yekaterinanın qəflətən vəfatı rus qoşunlarının

Cənubi Qafqazdan geri çağırılmasına səbəb oldu.

– XIX əsrin əvvəllərindən başlayaraq çar Rusiyası öz işğalçılıq siyasətini həyata keçirmək üçün "erməni amili"ndən təkrar yararlanmağa başladı. Xanlıqların işğalı gedişində Tiflisdə qurulan xüsusi erməni batalyonlarından istifadə olundu.

– Azərbaycanın Arazdan şimaldakı xanlıqlarının işğalını başa çatdırsa da, bu bölgələrdə ermənilərin sayca azlıq təşkil etməsi Rusiya imperiyasının Qacarlar və Osmanlı dövlətlərinin sərhədində bufer xristian dövləti yaratmaq siyasətinə imkan vermirdi. Məhz buna görə də ermənilərin kütləvi şəkildə işğal olunmuş Azərbaycan torpaqlarına köçürülməsi başlandı. Bu qanlı siyasət nəticəsində qısa müddətə ermənilər Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşdılar və burada özlərinə daimi məskənlər qura bildilər.

**Tədqiqatın elmi yeniliyi;** Dissertasiyanın başlıca elmi yeniliyi çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyətlərinin ilk dəfə kompleks şəkildə, ayrıca tədqiqat obyekti olmasıdır. Əldə edilən çoxsaylı arxiv sənədlərinin və ilk dəfə tədqiqata cəlb olunan erməni və digər xristian mənbələrinin verdiyi məlumatlar, eləcə də tarixi ədəbiyyat və müxtəlif mənbə materialları bizə bu problemi hərtərəfli və dərindən tədqiq etməyə imkan vermişdir. Bu zəngin materialların təhlili bizə aşağıda təqdim olunanları dissertasiyanın elmi yeniliyi hesab etməyə əsas verir.

- İlk dəfə olaraq çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyətləri problemi ayrıca tədqiqat obyekti kimi araşdırılmışdır;
- Ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyətlərinə təkan verən amillər üç mühüm mərhələyə bölünməklə ilkin mənbələrlə əsaslandırılmışdır;
- XVIII əsrdə Qarabağın xristian məliklərinin etnik kimliyinin ermənilər tərəfindən saxtalaşdırılması və onların tarixinin mənimsənilməsi ilkin qaynaqlar əsasında sübut edilmişdir;
- XVIII əsrin I rübündə Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq planlarının meydana çıxması, I Pyotrun işğal edilmiş Xəzərsahili ərazilərə xristianları köçürmək planları və Rusiya himayəsi altında gürcü-erməni çarlığı yaratmaq cəhdləri elmi ədəbiyyat və yeni arxiv sənədləri əsasında tədqiq olunmuşdur;

- XVIII əsrin 60-80-ci illərində ermənilərin Azərbaycan torpaqlarında dövlət yaradılması məqsədilə tərtib etdikləri layihə və planlar tədqiq edilərək sistemləşdirilmiş, onların məzmun və xüsusiyyətləri müəyyən edilmişdir;
- XVIII əsrin II yarısında çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyətlərinə beynəlxalq vəziyyətin təsiri, II Yekaterinanın Şərq siyasətinin həyata keçirilməsində ermənilərin vasitəçilik rolu ilkin mənbələr əsasında araşdırılmışdır;
- Georgiyevsk traktatının bağlanmasından sonra (1783) çar Rusiyası hakim dairələrinin tərtib etdiyi hərbi plan və layihələr əsasında Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq fəaliyyətləri dövrün arxiv mənbələri əsasında sübut edilmişdir;
- Tarixi Azərbaycan torpaqlarında Erməni vilayətinin yaradılmasının Rusiya imperiyasının gələcəkdə Şimali Azərbaycan torpaqlarında erməni dövləti yaratmasına zəmin hazırlaması və onun ağır nəticələri müəyyən edilmişdir;
- Şimali Azərbaycan xanlıqlarının işğalı zamanı çar Rusiyasının "erməni amili"ndən yararlanması, işğal olunmuş Azərbaycan torpaqlarına ermənilərin xüsusi məqsədlə kütləvi şəkildə köçürülməsi dövrün ilk qaynaqları əsasında araşdırılmışdır;

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti:** Dissertasiyanın əməli əhəmiyyəti ilk növbədə ondan ibarətdir ki, tədqiqat işində gətirilən faktiki material və ümumiləşdirmələrdən, bu materiallardan əldə olunmuş elmi nəticələrdən universitetlərin tarix fakültələrində "Çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyətləri" mövzusunda ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında, elmi konfrans və seminarların keçirilməsində geniş istifadə oluna bilər.

Dissertasiyanın nəticələrindən Azərbaycan tarixi üzrə dərslik və dərs vəsaiti tərtib edilməsində, həmçinin ali və orta ixtisas məktəblərində Azərbaycan tarixi fənninin tədrisində, Beynəlxalq münasibətlər, ermənişünaslıq kimi xüsusi ixtisas kurslarının oxunmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi:** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnsti-

tutunun “Azərbaycanın beynəlxalq əlaqələri tarixi” şöbəsində yerinə yetirilmişdir. Dissertasiya işinin mükəmməl şəkildə yazılması üçün müəllif Türkiyə, Rusiya Federasıyası və Almaniya Federativ Respublikasının müxtəlif arxiv və kitabxanalarında çalışmışdır. Dissertasiya işinin əsas məzmununu əhatə edən müddəalar müəllifin monoqrafiya (“XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri”, Bakı, 2007; “Азербайджан в XVIII-XIX веках”. Бишкек, 2010; XVIII. asırda Azerbaycan torpaklarında ermeni devleti kurma teşebbüsleri” İstanbul, 2014; həmmüəlif olduğu “XIX The relocation of Armenians to the lands of North Azerbaijan in the 19th century is an historical”, Baku, 2020; Переселение армян на земли Северного Азербайджана в XIX веке – неопровержимая правда истории, Баку, 2020; Игры великих держав по созданию армянского государства на территории Азербайджана. Бишкек, 2021) və elmi məqalələrində, həmçinin Azərbaycanda, eləcə də Türkiyənin Ankara, Əskişəhər, Ərzurum, İzmir, Iğdır, Van, Macarıstanın Budapeşt, Şimali Makedoniyanın Skopye şəhərlərində keçirilmiş beynəlxalq elmi-nəzəri konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu.

**Dissertasiyanın strukturu və həcmi.** Tədqiqat işi giriş, 5 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi (istifadə edilmiş ədəbiyyat siyahısı istisna edilməklə) 517.286 işarədən, o cümlədən Giriş 49253, I Fəsil 57249, II Fəsil 78026, III Fəsil 38564, IV Fəsil 129562, V Fəsil 149115, Nəticə 15310 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"ində** mövzunun aktuallığı, elmi yeniliyi əsaslandırılmış, tədqiqatın predmeti, obyekti, məqsəd və vəzifələri xülasə edilmiş, coğrafi və xronoloji çərçivələri müəyyən edilmiş, işlənmə dərəcəsi, o cümlədən mənbə bazası açıqlanır, müdafiəyə təqdim olunmuş əsas müddəaları səciyyələndirilmiş, problemin tarixşünaslığı, tədqiqatın metodoloji bazası nəzərdən keçirilmiş, işin praktiki əhəmiyyəti və aprobasiyası göstərilmişdir.

**"Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq ideyasına ilkin təkan verən amillər"** adlanan **I Fəsil** üç yarımfəsildən ibarətdir. *"Erməni dövləti" anlayışının mahiyyətinə dair"* adlanan I yarımfəsildə "Böyük Ermənistan" adlandırılan ərazinin coğrafi anlayış olduğu, onun özünü sonradan erməni adlandıran hay etnosuna aidiyyatı olmadığı, erməni tarixçiləri və onların havadarları tərəfindən "Şərqi Ermənistan" adlandırılan ərazilərin də uydurma "Böyük Ermənistan"ın bir hissəsi olmadığı ilkin mənbələri, əsasən antik dövr qaynaqlarını tədqiq edən tarixçilərin tədqiqatları əsasında araşdırılmışdır.

Qeyd etmək lazımdır ki, erkən orta əsrlər erməni mənbəyi hesab olunan Musa Xorenlinin əsərlərində də ermənilərin "*kiçik, olduqca azsaylı, zəif və çox zaman özgələrin hakimiyyəti altında yaşayan xalq*" [78] olduğu qeyd olunmuşdur.

XIX əsrin birinci qərinəsində Rusiya imperiyasının tapşırığı ilə yenicə yaradılmış Erməni vilayətinin kameral təsvirini həyata keçirən İvan Şopen öz əsərində ermənilərin uydurduğu qədim tarixdən bəhs edərkən: "*ermənilər Armeniyanın* (Erməni vilayətini nəzərdə tutur – G.N) *yerli əhalisi deyil, buraya Assuriyadan gəlmişlər"*[79] fikrini yazmışdı. Müəllif sonrakı tədqiqatında da bu fikri davam etdirərək yazır: *"Bizim Armeniya adlandırdığımız cənub vilayətində məskunlaşan əhali mənşə etibarilə tamamilə digər xalqdır*". [80]

---

[78] Մովսէս, Խորէնացի: Հայոց պատմութուն, էջ.6; Моисея Хоренскаго. История Армении, с.3-4.

[79] Шопен, И. Исторический памятник .., – с.229.

[80] Шопен, И. Новая заметки на древняя истории Кавказа и его обитателей / И.Шопен.– Санкт-Петербург: – 1866. – с.26.

*“Qarabağ: qriqoryanlaşdırılması və məliklərin tarixinə dair”* adlanan 2-ci yarımfəsildə erməni tarixçiləri tərəfindən qədim Albaniya dövlətinin ərazisinin “Ermənistan”ın tərkib hissəsi kimi qələmə verilməsinin heç bir elmi-tarixi əsasa malik olmadığı; Qarabağın tarıxində əsas dəyişikliklərin Ərəb xilafəti zamanında Albaniya dövlətinin aradan qaldırılması ilə baş verdiyi; Xilafətin Azərbaycanla bağlı yeritdiyi faciəli siyasət nəticəsində vilayətin dağlıq hissəsində ermənilərin dini üstünlüyünün təmin edilməsi və bunun zaman keçdikcə etnik sahədə də özünü göstərməsi ilkin qaynaqlar və Azərbaycan tarixçilərinin araşdırmaları nəticəsində təhlil edilmişdir.

Erməni müəllifləri XVIII əsrdə Qarabağ ərazisində mövcud olmuş beş xristian məlikliyinin rolunu şişirtməyə, hər bir məlikliyi az qala erməni milli dövlətçiliyinin nümunəsi, əsrlər boyu erməni dövlətçililiyi ənənələrini qoruyub yaşadan qurum kimi təqdim etməyə və eyni zamanda erməni əhalisini Qarabağın yerli sakinləri olduğunu sübut etməyə çalışırlar.[81]

İlkin qaynaqlar Qarabağ ərazisində mövcud olmuş xristian məliklərin XVIII əsrdə hələ də alban mentalitetini saxladığını sübut etməyə imkan verir. Belə ki, XVII əsrin sonu XVIII əsrin I yarısında Səfəvi və Əfşar hökmdarlarının Azərbaycan torpaqlarında yaşayan xristianlarla bağlı sənədlərdə (farsdilli) Üçkilsə katolikosları və feodal əyanlarından fərqli olaraq Qarabağın xristian əhalisinə ünvanlanan sənədlərin heç bir yerində erməni sözü işlədilməmişdir. Məsələn: Sultan Hüseynin (1694-1722) 1699-1701-ci illərdə alban katolikosu Həsən Cəlala,[82] II Təhmasibin (1722-1732) 1730-cu ildə Vərəndə məliyi Məhəmməd Hüseynə,[83] Nadir Əfşarın xan kimi 1734-cü ildə,

---

[81] Иоаннисян, А. Россия и Армянское.., – с.15-16; Арутюнян, П. Освободительное движение.., – с.60; Магалян, А. Арцахские меликства.., – с.31; Հովհաննիսյան, Ա. Դրվագներ հայ..., – էջ.47-69; Այվազյան, Ա. Արևելահայության ժողովրդագրությունը.., – էջ.122...

[82] Persian documents of the Matenadaran: decrees, volume III., – p.p.142-144, 340-341, 624-627,149-152, 346, 637-642.

[83] Persian documents of the Matenadaran: decrees, volume III.., – p.p.184, 376, 700.

şah kimi 1736-cı ildə Xaçın məliklərinə[84] və 1745-ci ildə Dizaq məliklərinə[85] ünvanlanan fərman və məktublarının heç bir yerində erməni sözü işlədilməmişdir.

Bundan başqa, erməni müəllifləri tərəfindən *"Arsakın (Qarabağın) beş məlikliyinin ərazisində bütün Ermənistanın azad edilməsi perspektivi ilə milli dövlət yaradılması arzulanır və ...bilərəkdən yerli qüvvələr haqqında fantastik rəqəmlər uydurulurdu."*[86] Halbuki, 1734-cü il məlumatına görə Xaçın mahalında bütövlükdə cəmi 4 kənd mövcud idi. Həmin kəndlərdən birinin əhalisi kəndi tamamilə tərk etdiyi üçün burada yalnız 3 kənd qalmışdı.[87]

Qarabağ məliklərinin mənşəcə alban olduqlarını onların Rusiya çarlarına ünvanladığı məktublarda da izləmək mümkündür. İlkin qaynaqlara əsaslanan T.Mustafazadə yazır: "*Məliklərdən dördünün – İsay, Şirvan, Sergey və İosifin 1723-cü ilin martında I Pyotra yazdıqları məktubdan aydın olur ki, o zaman Azərbaycanda yaşayan xristianlar özlərini alban (aqvan) adlandırmışlar".*[88]

Onu da qeyd etmək lazımdır ki, Qarabağın xristian məliklərinin adından erməni dilində hazırlanmış məktubların əksəriyyətindəki etnik kimlik məsələsi, həmin məktubların rus dilinə tərcüməsi zamanı ermənilər tərəfindən tamamilə saxtalaşdırılmışdır. Məsələn: 1723-cü ilin martında Qarabağ məliklərinin ətrafdakı dağıdıcı hücumlardan qorunmaq üçün I Pyotra ünvanladıqları erməni dilində yazılmış məktubdakı "*alban türkləri*" ifadəsi[89] məktubun rus dilinə

---

[84] Persian documents of the Matenadaran: decrees, volume IV.., – p.p. 25-28, 41-43, 130-133, 144-146, 205-210, 237-243.

[85] Persian documents of the Matenadaran: decrees, volume IV.., – p.p.61-62, 163, 285- 287.

[86] Şükürov, K. Azərbaycan torpaqlarında Ermənistan dövləti necə yaradıldı // Xalq qəzeti, – 2019, 26 aprel. – s.8.

[87] Bax: Persian documents of the Matenadaran: decrees, volume IV: doc.4(p.26-27).

[88] Mustafayev T. Qarabağ (Gəncə) bəylərbəyliyi XVIII əsrin I qərinəsində. // Bakı: Azərbaycan EA Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, – 1988. №3, – s. 38.

[89] Послание четырех карабахских меликов Петру I с прозьбой оказат им помош (март 1723 г.) // АВПРИ, фонд. №100 "СРА" оп.100/4, дело 1, – л.л.2-2об; –л.л.10-11; Mahmudov Y., The resettlement of Armenians to the lands of North Azerbaijan – the irrefutable truth of history // Y Mahmudov., G.Najafli. – Baku, Turkhan, – 2020. – p.15.

tərcüməsi zamanı "*alban müsəlmanları*" ifadəsi ilə dəyişdirilmişdir.[90]

Qarabağın xristian məliklərinin 20 mart 1724-cü ildə I Pyotra ünvanladıqları erməni dilində yazılmış digər məktubda isə *"Biz albanıq və millətə görə Utiyik (Մեք Աղուվանք եմք և ազգով Ուտիք)* [91]yazılmışdır.

Məliklərinin 1781-ci il 2 sentyabr tarixində II Yekaterinaya ünvanladıqları məktubun erməni dilində olan variantında onlar özləri haqda *"biz Arşaki (Արշակուն) və Alban (Աւղան) taxt-tacının çarları nəslinə məxsusuq"* yazmışlar.[92] Ermənilər həmin sənədin rus dilinə tərcüməsini saxtalaşdırıb *"biz qədim erməni rəisləri nəslindənik"* yazmışlar.[93]

Göründüyü kimi, bütün XVIII əsr boyu Qarabağ məlikləri özlərinin etnik mənsubiyyətlərini hələ unutmamışdılar.

*"Ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsinin ilkin mərhələsi"* adlanan III bölmədə tədqiqata cəlb edilmiş müxtəlif qaynaqlar əsasında ermənilərin Azərbaycan torpaqlarına yerləşdirilməsinin ilkin mərhələləri və bu torpaqlar hesabına erməni dövləti yaratmaq ideyasına təkan verən amillər təhlil edilmişdir.

Qaraqoyunlu Cahanşahın icazəsi ilə 1441-ci ildə erməni katolikoslarının fəaliyyət mərkəzi Kilikiyanın Sis şəhərindən indiki İrəvan şəhəri yaxınlığında yerləşən Üçkilsə (Üçmüədzin) monastırına köçürüldü.[94] Qaraqoyunlu hökmdarları erməni katolikoslarını himayə edərək onlara sərbəstlik verdilər. Erməni katolikosluğunun mərkəzinə çevrilən Üçkilsə müxtəlif vasitələrlə Azərbaycan türklərinə məxsus kəndləri, tarlaları, əkin yerlərini, monastrlar və digər əmlak sahələrini

---

[90] Армяно-русские отношения в первой трети XVIII века, – т.II, ч.II, – с.30-31; Nəcəfli, G. Qarabağın xristian alban məliklərinə dair // – "İpək yolu", Azərbaycan Universitetinin elmi jurnalı. Xüsusi buraxılış. – Bakı, 2021, – s.73-82. – s.80.

[91] Челобитания удийцев к Петру I (20 март 1724 г.) // АВПРИ, фонд. №100 "СРА" 1724 г, оп.100/4, дело 1, – л.л.27-27об.

[92] Обращение карабахских меликов к Екатерина II. (02 сентября 1781г.) // РГВИА, фонд. №52, оп.1/194, дело 270, л.л.5-6; Махмудов, Я. Переселение армян на земли Северного Азербайджана в XIX веке – неопровержимая правда истории. / Я.Махмудов, Г.Наджафли. – Баку: «Турхан», 2020, – 120 с. – с.15-16.

[93] Армяно-русские отношения XVIII веке.., – с.183.

[94] Երեհանցի Սիմէօն. Ջամբռ., – էջ.100.

ələ keçirməyə başladı. Matenadaranda saxlanılan 1687-ci il tarixli bir sənəddə qeyd olunur ki, biz (yəni ermənilər – G.N.) müsəlmanlara (Azərbaycan türklərinə – G.N.) məxsus torpaqları *"...ya satın alır, ya zəbt edir, ya sahibinin əlindən çıxarır, ya rüşvət verib alır, ya bəxşiş kimi əldə edir və yaxud da zorla ələ keçiririk"*.[95] "Cambr"ın rus dilinə tərcümə edilmiş variantına ön söz yazan P.T.Arutyunyan bu sənədi şərh edərkən etiraf etməli olur ki, "*...məhz bu yollarla XV-XVIII əsrlərdə erməni kilsəsinin və dünyəvi feodallarının torpaq mülkiyyəti formalaşmışdı*".[96] Hətta, erməni katolikosluğunun yerləşdiyi Üçkilsə (Valarşabad) kəndi belə 1443-cü ildən başlayaraq hissə-hissə müxtəlif vasitələrlə Azərbaycan türklərindən alınmışdı.

Təəssüflə qeyd etməliyik ki, ermənilərin Azərbaycan ərazisində məskunlaşmasına təkan verən növbəti mərhələ XVI-XVII əsrlər, XVIII əsrin birinci qərinəsində baş vermiş Səfəvi-Osmanlı müharibələri ilə sıx bağlıdır. Bu müharibələr həm də sünni-şiə düşmənçiliyi xarakteri daşıdığı üçün məcburi miqrasiya ilə müşayiət olunmuş və bölgənin dinc türk-müsəlman əhalisi ölkənin digər vilayətlərinə köçürülmüşdü. Dövrün qaynaqlarına istinad edilən məlumata görə, *Fərhad paşanın başçılıq etdiyi Osmanlı ordusu 1583-cü ilin avqustunda İrəvan bölgəsinin Şörəyel və Talın mahallarına daxil olan zaman yerli əhali öz torpaqlarını tərk edib Ağrıdağ və onun yaxınlığındakı yaylaqlara çəkilmişdi.*[97] Belə hallarda yaranmış fürsətdən istifadə edən erməni kilsəsi osmanlıların işğal etdikləri Azərbaycan kəndlərini onlardan əlverişli qiymətə satın alır və Türkiyənin müxtəlif vilayətlərindən buraya axışan erməniləri həmin ərazilərə yerləşdirirdi.

Eyni vəziyyəti Gəncə-Qarabağ bəylərbəyliyində də izləmək mümkündür. "*Osmanlı hakimiyyətinin nümayəndələri yerli şiə əhaliyə qarşı münasibətdə barışmaz mövqedə olduğu halda, Qarabağın xristian əhalisinə son dərəcə dözümlülük nümayiş etdirmişdir. Buna görə də, azərbaycanlıların tərk etdiyi şəhər və kəndlər xristianlar – erməniləşmiş albanlar tərəfindən məskunlaşdırılmışdır"*.[98]

---

[95] Ереванци С. Джамбр., – с.28.
[96] Ереванци С. Джамбр., – с.28.
[97] Bax: Kırzıoğlu, F. Osmanlıların Kafkas ellerini fethi., – s.346.
[98] Rəhimizadə, İbrahim (Hərəmi). Osmanlı ordusunun Azərbaycana yürüşləri., – s.196, 199; Bax: Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, – s.15,16.

Beləliklə, yuxarıda qeyd etdiyimiz səbəblər XVIII əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqları hesabına dövlət yaratmaq iştahasının güclənməsinə gətirib çıxardı. Bu məqsədi reallaşdırmaq üçün planlar hazırlayan ermənilər xaricdə havadarlar axtarmağa başladılar.

**"XVIII əsrin I yarısında çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq fəaliyyətləri"** adlanan II fəsil iki yarımfəsildən ibarətdir.

Fəslin *"Azərbaycan torpaqlarında erməni dövləti yaradılması məqsədilə tərtib olunmuş layihələr"* adlanan I yarımfəslində XVIII əsrin I yarısında ermənilər tərəfindən hazırlanan, öncə Qərbi Avropa, sonra isə Rusiya dövlətlərinə təqdim edilən layihələr ilkin qaynaqlar əsasında tədqiqata cəlb edilmişdir.

Yarımfəsildə Üçkilsə katolikoslarının separatçı fəaliyyəti; Zəngəzur məliyinin oğlu İsrail Orinin ermənilərin himayə edilməsi xahişi ilə Qərbi Avropaya üz tutması; XVII əsrin sonlarında Üçkilsə, sonra isə Gəncəsər monastırına gələn Orinin planlarının burada baş tutmaması; Orinin Avropa hakimlərinə təqdim edərkən istədiyini yaza bilməsi üçün Zəngəzur məliklərinə ağ vərəqlərə imza atdırması; Qərbi Avropa dövlətlərinin köməyi ilə Azərbaycan ərazisinə Səlib yürüşünün hazırlanması[99] və s. məsələlər araşdırılmışdır.

1699-cu ildə İsrail Ori 10 nəfər Zəngəzur məlikinə imzalatdırdığı saxta məktubları və "erməni dövlətinin bərpası" haqqında 36 maddədən ibarət "Pfals layihəsi" adlandırılan layihəni Pfals Kürfürsti Yohan Vilhelmə təqdim etdi. Lakin onun üz tutduğu Qərbi Avropa dövlətlərinin hər biri onların bu təşəbbüsə qoşula bilməyəcəyini, Rusiyanın razılığı olmadan Xəzər sahillərinə hərbi qüvvə çıxarılmasının mümkünsüzlüyünü bildirdilər və bu təşəbbüs üçün I Pyotrdan razılıq alınmasını tövsiyə etdilər.[100]

Əslində bu zaman beynəlxalq şərait Avropa dövlətlərini Osmanlı imperiyası ilə birbaşa ziddiyyətlərə girməkdən çəkindirirdi. "Müqəddəs birliyin" Osmanlı dövləti ilə müharibəsi yenicə başa çat-

---

[99] Bax: Эзов, Г. Сношения Петра Великого.., – s.XXI-XXIII; Nəcəfli, G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri / G.Nəcəfli. – Bakı, "Nurlan". – 2007. – 246 s. s.30-39.

[100] Bax: Nəcəfli, G. XVIII əsrdə Azərbaycan ərazisində.., – s.47-48.

dığına görə Avropa dövlətləri onlar üçün kifayət qədər əlverişli olan Karlovça (1699) sülhünü pozmaq istəmirdilər. Osmanlı dövlətinin qüdrətini sarsıtmaq üçün müxtəlif vasitələrə əl atmaqdan çəkinməyən bu dövlətlər ələ düşmüş bu fürsətdən birbaşa istifadə etməkdən çəkinərək, erməni layihələrinin gerçəkləşdirilməsini bu məsələdə daha maraqlı olan Rusiyaya yönəltməyə səy göstərdilər.[101]

1701-ci ilin yazında Moskvaya gələn İsrail Ori bir il əvvəl Zəngəzurda xristian məliklərinə imzalatdırdığı ağ vərəqlərə saxta məlumatlar yazdıraraq I Pyotra ünvanladı. Ümumiyyətlə, 1701-ci ilin təkcə iyul ayında Ori I Pyotra boyar F.A.Qolovin vasitəsilə 11 dəfə məktub göndərmişdi. 1701-ci il 14 iyul tarixində onun I Pyotra göndərdiyi 5 bənddən ibarət hərbi planında rus qoşunlarının Cənubi Qafqaza yürüşünün bütün hərəkət istiqamətləri göstərilmiş və ermənilərin rus döyüşçüləri ilə birləşəcəyi vəd edilirdi. [102]

İsrail Ori rus qoşunlarını Cənubi Qafqaza yürüşə şirnikləndirmək üçün hazırlanan 18 bənddən ibarət "Moskva layihəsi" adlanan layihəni 1701-ci il 25 iyul tarixində F.A.Qolovin vasitəsilə I Pyotra təqdim edə bildi. Bu layihədə təkcə Səfəvi dövlətinə məxsus ərazilər deyil, həm də Osmanlı torpaqlarına da hərbi müdaxilənin planı hazırlamışdı. [103] İ.Orinin Avropa dövlətlərinə təqdim etdiyi "Pfals layihəsi"ndə Rusiyanın rolu yalnız ərazisindən qoşunların keçməsinə razılıq verməsindən ibarət idisə, I Pyotra təqdim edilən "Moskva layihəsi"ndə isə 25 min nəfərlik (15 min süvari, 10 min piyada) rus qoşununun iştirakı nəzərdə tutulmuşdu. [104]

Hər iki layihələrdə qurulması planlaşdırılan erməni dövlətinin sərhədləri Səfəvi və Osmanlı imperiyalarının hüdudları daxilində nəzərdə tutulurdu. Bu ərazilər əsasən Azərbaycanın şimal-qərb tor-

---

[101] Uras, Esat. Tarıhte Ermenıler ve Ermenı Meselesı., s.745; Наджафли Г. Азербайджан в XVIII-XIX веках / Г.Наджафли. – Бишкек: «Бийиктик», – 2010. – 247 с. + 16 иллюс. с.53-54.

[102] Bax: Эзов, Г. Сношения Петра Великого.., – с.80-83; Армяно-русские отношения..., т.II, ч.I, – с.205-208.

[103] Bax: Эзов, Г. Сношения Петра Великого.., – с.85-91; Армяно-русские отношения..., т.II, ч.I, – с.210-216.

[104] Bax: Nəcəfli, G. XVIII əsrdə Azərbaycan ərazisində.., – s.54-56.

paqları – Çuxursəd vilayəti, Gəncə-Qarabağ, qismən Cənubi Azərbaycan və Osmanlı dövlətinə məxsus Şərqi Anadolu əraziləri idi.

Fəslin *"I Pyotrun Cənubi Qafqazın işğalında ermənilərdən yararlanmaq siyasəti"* adlanan II yarımfəslində I Pyotrun (1682-1725) Cənubi Qafqazla bağlı gizli məqsədi, bu məqsədin reallaşdırılması üçün ermənilərdən bir alət kimi istifadə edilməsi və s. məsələlər təhlil edilmişdir.

Geniş işğalçılıq niyyətləri olan, Rusiyanı dünya imperiyasına çevirməyə çalışan I Pyotr cənub-şərq istiqamətində "bütün Şərqin həqiqi qovşağı" hesab etdiyi Xəzər dənizi və onun ətrafındakı ölkələrə böyük maraq göstərirdi. O, Xəzər dənizinin cənub-qərb və cənub sahillərini, yəni Azərbaycan və Gilanı öz əlinə alaraq, Xəzər dənizini öz daxili gölünə çevirmək, özü üçün gəlirli dəniz ticarətini inkişaf etdirmək istəyirdi. O, buradan Hindistana gedən yola çıxmaq, digər tərəfdən də ermənilər və gürcülərlə birləşib özünün başlıca rəqibi olan Osmanlı imperiyasının Şərq sərhədlərini təhlükə altına almaq niyyətində idi.[105]

XVIII əsrin əvvəllərinə qədər Rusiyanın hərbi-siyasi təcavüz üçün qüvvəsi olmadığından Səfəvi dövlətinə qarşı yalnız iqtisadi siyasəti həyata keçirirdi. Lakin bu siyasətin əhəmiyyətinin az olduğunu başa düşən I Pyotr hərbi işğal yolu ilə Xəzəryanı vilayətləri ələ keçirməyi qərara aldı. Bunun üçün tutarlı bir "səbəb" lazım idi. Belə bir "səbəb" isə bu regionda yaşayan xristianlara – "*bədbəxt ermənilərə və gürcülərə zalım müsəlmanlara qarşı mübarizədə yardım göstərmək*" ideyası oldu.[106]

I Pyotr Xəzərsahili vilayətlərə yürüşə hazırlıq tədbirləri ilə yanaşı bu işğala hüquqi don geyindirilməsinə də xüsusi diqqət yetirirdi. I Pyotrun rəsmi təbliğatını əks etdirən əsas sənəd 1722-ci il 15 iyul tarixli Manifest idi.[107] 1722-ci ilin mayında arvadı Yekaterina Alekseyevna ilə bərabər Moskvadan Həştərxana yola düşən I Pyotr, iyunun 15-də Həştərxana çatdı və burada Xəzərsahili ərazilərdə

---

[105] Bax: Mustafazadə, T. Rusiyanın Cənubi Qafqaz və Ön Asiya siyasətində erməni amili (XVIII-XIX əsrin əvvəli) // – Bakı: AMEA, Tarix İnstitutu "Elmi Əsərlər". "Xüsusi buraxılış", – 2015. № 52, 53, 54, 55, – s.352-358. – s.352.

[106] Bax: Nəcəfli, G. XVIII əsrdə Azərbaycan ərazisində.., – s.37-38, 68.

[107] Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya.., – s.100-101,105-107.

yaşayan əhaliyə ünvanlanmış Manifesti imzaladı.[108]

Rus, fars və Azərbaycan dilində tərtib edilmiş manifestdə Pyotr yürüşünün səbəbləri kimi Hacı Davud və Surxay xanın Şamaxıda rusları qırması və Səfəvi şahının bu təxribata qarşı tədbir görməməsi göstərilirdi. Onu da qeyd edək ki, əgər I Pyotr Cənubi Qafqazda yaşayan xristian əhalini "müsəlmanlardan xilas etmək" bəhanəsi ilə arxayın edirdisə, Xəzərsahili vilayətlərdə yaşayan şiə müsəlmanlara *"Səfəvi şahı ilə dost münasibətlərdə olduğunu, onun ərazilərini tutmaq deyil, guya həmin ərazilərin üsyan etmiş feodallardan və qonşu türklərdən xilas etməsi üçün gəldiyini" elan edirdi.*[109]

I Pyotr Xəzər dənizinin qərb sahillərini öyrənmək məqsədilə Azərbaycandan xüsusilə, karvan yolu ilə Şirvandan keçmək şərti ilə Səfəvi dövlətinə özünün yaxın adamlarından birini A.P.Volınskini göndərdi. Elçi kimi İsfahana yola düşən Volınskiyə I Pyotr eyni zamanda ermənilər və gürcülər haqqında gizli göstəriş də vermişdi: Ona verilmiş təlimatın VIII bəndində yazılmışdı: *"O, ermənilər haqqında, onların sayı, harada yaşaması, onlar arasında əsilzadələrin olub-olmamasını, vəziyyətlərinin necə olmasını öyrənməlidir".*[110]

Erməni və gürcülərdən yararlanmağı diqqət mərkəzinə götürən I Pyotr iyulun 2-də B.Türkistanovu məktubla Kartli çarı VI Vaxtanqın yanına göndərərək rus qoşunlarının tezliklə Xəzər sahillərinə gələcəyini, Cənubi Qafqazda yaşayan bütün xristianların birləşərək ona kömək etməsini və İrəvan şəhərinin Osmanlı türklərinin əlinə keçməsin deyə onun Vaxtanq tərəfindən ələ keçirilməsini tələb etdi.[111] VI Vaxtanqla əlaqəsi olan erməni din xadimləri Pyotrun planları ilə tanış idilər və onu tamamilə bölüşürdülər. 1722-ci il 22 dekabr tarixli Tiflisdəki erməni yeparxiyasının rəisi arxiyepiskop Minas Pərvazyanın vardapet Minasa məktubunda deyilirdi: *"Sənə məlumdur ki, İrəvan İran (*Səfəvi dövləti – *G.N.) torpaqlarının açarıdır və bizim niyyətimiz İrəvan qalasını ələ keçirməkdir. Əgər o bizim əlimizdə olarsa nə türklər, nə də iranlılar bizə heç nə edə bilməyəcək-*

[108] Mustafazadə, T. Avropa diplomatiyasında "erməni məsələsi" ..., s.32.
[109] Мустафазаде Т. Азербайджан и русско-турецкие.., с.46.
[110] Mustafazadə T. Avropa diplomatiyasında.., s.30.
[111] Вах: Армяно-русские отношения.., т.II, ч.I, с.7-13.

*lər”.*[112]

Bu zaman Qarabağın xristian məlikləri adından I Pyotra ünvanlanan çoxsayda məktublar göndərilməyə başlandı. Bu məktublardan birində Qarabağ bölgəsinin, həmçinin *“Qarabağ və İrəvan arasında yerləşən Qafan bölgəsi”*nin Rusiya imperiyasının protektoratlığına keçirilməsi xahiş olunur və bundan başqa, Xəzər dənizindən Qarabağa kimi mövcud olan yolların, dağların və digər təbii-coğrafi ərazilərin geniş təsvirləri verilmişdi.[113]

Xəzərsahili torpaqların işğalından sonra I Pyotr burada möhkəmlənmək üçün ilk növbədə demoqrafik durumu dəyişdirməyi planlaşdırdı. Bunun üçün türk-müsəlman əhalinin sayını azaltmaq, xristianları, ilk növbədə erməniləri adı çəkilən torpaqlara köçürüb məskunlaşdırmağı nəzərdə tuturdu.

1724-cü ilin yanvarında Rusiya hökuməti Qarabağın xristian məliklərinin “*qüvvələrini birləşdirmək və lazım gələrsə osmanlılara qarşı müqavimət göstərmək”* tapşırığı ilə rus ordusunun zabiti İvan Karapeti gizli olaraq Qarabağa göndərdi.[114] Həmin il noyabrın 5-də Rusiya Xarici İşlər Kollegiyasından başda İvan Karapet olmaqla Həştərxandan olan üç nəfər erməniyə məxfi tapşırıq verildi: *“Qarabağ xristianlarını və patriarx İsayı Xəzəryanı əyalətlərə köçməyə vadar edin*”.[115]

I Pyotrun *“Erməni xalqına əlahəzrət fərmanı”*nda *(Высочайшая грамота, 10.11.24)* erməniləri Rusiya imperiyasının himayəsinə almaq və onları Xəzərsahili ərazilərə (Gilan, Mazandaran, Bakı və s.) yerləşdirmək nəzərdə tutulurdu.[116] Eyni tarixdə I Pyotr general Matyuşkinə göndərdiyi, bilavasitə ermənilərin işğal olunmuş torpaqlara köçürülməsindən bəhs edən digər fərmanında *(Высочайшие указы)* yazırdı: *“Ermənilər Gilan, Mazandaran, Bakı, Dərbənd və*

---

[112] Армяно-русские отношения.., т.II, ч.I, с.XXXI.

[113] Запись заявлений, сделанных в государственной Коллегии иностранных дел представителями астраханских армян (5 ноябр 1724 г.) // АВПРИ, фонд. №100 “СРА”, оп.101, дело 2, 1724 г. – лл.27об, 28.

[114] Вах: Армяно-русские отношения.., т.II, ч.I, с.LVIII-LIX.

[115] Доносения Персией, Грузией и Арменией // АВПРИ, фонд. №77, “СРП”, оп.1, 1729 г., дело 3, – л.119.

[116] Эзов, Г. Сношения Петра Великого.., – с.392-393.

*digər Xəzəryanı vilayətlərə köçərsə, onlara şəhər və kəndlərdə boşalmış ən əlverişli və sərfəli yerlər təklif edilsin və Rusiyaya yaxşı münasibət göstərməyən yerli sakinlər isə oradan çıxarılsın".*[117]

Polkovnik Ostafyevə erməniləri Bakı şəhərində və şəhərin ətraf kəndlərində, eləcə də polkovnik Yunqerə erməniləri Dərbənddə və şəhər yaxınlığındakı kəndlərdə yerləşdirmək tapşırılmışdı.[118]

I Pyotrun verdiyi bütün fərmanlardan aydın olur ki, o, Rusiyanın mənafeyi naminə ermənilərə belə diqqət göstərir və himayə edirdi.

**"XVIII əsrin II yarısında Azərbaycan torpaqlarında erməni dövləti yaradılması məqsədilə tərtib olunan plan və layıhələr"** adlanan və 2 yarımfəsildən ibarət olan III fəsildə XVIII əsrin II yarısında Azərbaycan torpaqlarında erməni dövləti yaradılması məqsədilə ermənilər tərəfindən tərtib olunan layihə və hərbi planlar işıqlandırılmışdır.

Fəslin *"Azərbaycan torpaqlarında erməni dövləti yaradılması məqsədilə tərtib olunan layihələr (1760-1782)"* adlanan I yarımfəslində əsasən II Yekaterinanın (1762-1796) hakimiyyətə gəldiyi vaxtdan Georgiyevsk müqaviləsinə qədərki dövrdə ermənilərin Rusiya və digər Avropa dövlətlərinə təqdim etdiyi layihələr araşdırılmışdır.

XVIII əsrin 60-cı illərində İosif Emin adlı bir Həmədan ermənisi gürcü çarı II İraklinin hakimiyyəti altında *"birləşmiş erməni-gürcü dövlətinin yaradılması"* və Qarabağ xanlığı ərazisindəki xristian məliklərin II İraklinin hakimiyyəti altında birləşərək Avropa nümunəsində *"birləşmiş erməni-gürcü ordusu"*nun qurulması layıhəsi ilə çıxış etdi.[119] 1761-ci ilin noyabrında kansler Vorontsovla görüşən İ.Eminin "*qüdrətli Rusiya imperiyasının protektorluğu altında gürcü-erməni dövlət birliyinin yaradılması*" haqqında təklifi rəğbətlə qarşılandı. Hətta xəstə yatan imperatriçə Yelizaveta bu layihəni bəyənərək, *"Cənubi Qafqazda erməni dövlətinin olması xüsusilə Türkiyə ilə müharibə şəraitində Rusiya üçün böyük əhəmiyyət kəsb*

---

[117] Эзов, Г. Сношения Петра Великого.., – с.396-397.
[118] Bax: Мустафазаде Т. Азербайджан и русско-турецкие.., с.142-143.
[119] Bax: Nəcəfli G. XVIII əsrdə.., s.109-110.

*edərdi"* – fikrini söyləmişdi.[120]

Rusiya-Türkiyə (1768-1774) savaşının gedişi zaman Həştərxan sakini, toxuculuq manufakturasına sahibliyi ələ keçirmiş Moisey Sarafovun (Movses Sarafyan – *G.N.)* hazırladığı *"Ermənistanın azad edilməsi"* və *"Rusiyanın protektoratlığı altında erməni dövləti yaradılması"*nı nəzərdə tutan layihə 1769-cu ilin yayında Rusiya Xarici İşlər Kollegiyasına təqdim edildi.[121] 14 bənddən ibarət olan bu layihədə Azərbaycan torpaqlarına iki istiqamətdən hərbi yürüş təşkil edilməsi nəzərdə tutulurdu. Birinci istiqamət *"su yolu ilə Xəzər dənizindən və quru yolla İran ərazilərindən*", ikinci istiqamət isə "*Gürcüstan ərazisindən keçməklə"* təşkil olunmalı idi.[122]

Qeyd olunan dövrdə Peterburq sarayında zərgər işləyən erməni varlısı İvan Lazarev (Hovanes Ağazaryan – *G.N.*) və Rusiyadakı ermənilərin arxiyepisokpu İosif Arqutinski (Hovsen Arqutyan – *G.N.*) daha fəal idi. Onlar müxtəlif vasitələrlə Rusiya hakim dairələrində yüksək nüfuza malik şəxslərlə – knyaz Q.Potyomkin, general A.Suvorov, kansler A.Bezborodkonun qılığına girərək onların yardımı ilə *"Rusiyanın protektoratlığı altında erməni dövləti yaradılması"* adlı layihə irəli sürmüş və onu reallaşdırmağa çalışmışlar.[123]

1780-ci ilin əvvəllərində İvan Lazarev A.Suvorova *"Ermənistanın siyasi vəziyyəti və erməni dövlətinin bərpası haqqında tədbirlər"* adlanan "Hesabat"ını ("Докладная записка") təqdim etdi. O, həmçinin *"Böyük Ermənistan"ın bərpası və İrəvanda ayrıca erməni dövləti yaradılması"* planı ilə bərabər, altında Suvorovun da imzası olan *"Qədim erməni əraziləri"* adlı uydurma bir xəritəni də knyaz Q.Potyomkinə təqdim etmişdi.[124]

Küçük Qaynarca sülhünün Rusiya üçün açdığı imkandan ermənilər üçün yararlanmağa çalışan İ.Arqutinski *"Ararat çarlığının*

---

[120]Ананян Ж.А. Армянский просветитель Иосиф Эмин. // – Москква: Новая и новейшая история, –1998, №1, – с.148-163. – с.156; Bax: Nəcəfli G. XVIII əsrdə.., s.110.

[121] Проект Мовсеса Сарафова //АВПРИ, фонд. №110 "СРГ", оп.110/2, 1761 г. дело 2, – лл.90-92об.

[122]Ананян Ж.А. Армянский просветитель.., с.156.

[123] Bax: Собрание актов, относящихся.., с.68-70; Армяно - русские отношения..., т.IV, ч.II, с.151-152.

[124] Армяно - русские отношения..., т.IV, ч.II, с.7, 151-152.

*yaradılması"* barədə hazırladığı layihəni Rusiya hakim dairələrinə təqdim etmişdi.[125] Həmin layihə II Yekaterina tərəfindən bəyənilmişdi.

XVIII əsrin 60-70-ci illərində yeni yaradılacaq "erməni dövləti"nin idarə forması barədə layihəni Hindistan ermənisi Şaamir Şaamiryan (Şahəmir Şahəmiryan) tərtib etmişdi. Plana görə: "*yaradılacaq müstəqil erməni dövlətinin başında erməni çarı durmalı; dövlətin Peterburqda daimi nümayəndəliyi olmalı; Rusiya ilə ömürlük müqavilə imzalanmalı; dövlətin təhlükəsizliyini təmin etmək üçün 6 minlik rus qarnizonu 20 il müddətinə Ermənistanda qalmalı idi"*.[126]

Mədrəsdəki dərnək həm də, gələcək erməni dövlətinin 2 cilddən və 521 maddədən ibarət Konstitusiya layihəsini də hazırlayıb nəşr etdirmişdi. Şaamiryanın fikrincə yaradılacaq dövlət ya Respublika, ya da İngiltərə nümunəsində Konstitusiyalı monarxiya olmalı idi.

Beləliklə, XVIII əsrin üçüncü qərinəsində yaranmış gərgin beynəlxalq vəziyyətdən və Rusiyanın yardımından yararlanan erməni varlıları tarixi Azərbaycanın Şimal-Qərb torpaqları hesabına erməni dövləti yaradılması ideyasını daha ön plana çəkərək bu məqsədlə hazırladıqları plan və layihələrini Rusiya imperiyasının yardımı ilə gerçəkləşdirməyə çalışırdılar.

Fəslin *"Azərbaycan torpaqlarında erməni dövləti yaradılması məqsədilə tərtib olunan hərbi planlar (1783-1800)"* adlanan II yarımfəslində Georgiyevsk traktatından əsrin sonunadək olan müddətdə ermənilərin tərtib etdiyi layihələr araşdırılmışdır. Rusiya və Gürcüstan arasında Georgiyevsk müqaviləsinin bağlanmasından (24.07.83) dərhal sonra İrəvan xanlığının qərb və Osmanlı dövlətinin şərq torpaqlarında erməni dövləti qurulmasını nəzərdə tutan "Rus-erməni müqaviləsi" ("Şimal layihəsi") layihəsi İ.Arqutinski tərəfindən hazırlanaraq Rusiya hakimiyyət orqanlarına təqdim edildi. 18 bənddən ibarət planda İ.Arqutinskinin "Erməni dövlətinin siyasi quruluşu" haqqında fərziyyələri geniş yer alırdı.[127] Planda mütləq monarxiya formasında qurulacaq erməni dövləti ilə Rusiya arasında hərbi itti-

---

[125] Uras E. Tarihte Ermeniler ve.., s.749; Necefli G. XVIII. Asırda Azerbaycan Torpaklarında Ermeni Devleti Kurma Teşebbüsleri. İstanbul, 2014, s.125-126.
[126] История армянского народа (под.ред. М.Г.Нерсисян).., с.173.
[127] Uras E. Tarihte Ermeniler ve.., s.753-754.

faqın bağlanması, ermənilər üçün Xəzər dənizində liman inşa edilməsi, dövlətin paytaxtının Ani və ya Ararat (Ağrı) bölgəsinin istənilən bir məntəqəsi olması nəzərdə tutulurdu.

17 maddədən ibarət "Rus-erməni müqaviləsi" ("Cənub layihəsi") adlı digər layihə Ş.Şaamiryan tərəfindən hazırlanaraq Rusiya hakimiyyət orqanlarına təqdim edildi. Layihədə II İraklinin başçılıq etdiyi birləşmiş erməni-gürcü dövləti qurulması nəzərdə tutulurdu.[128]

Rusiyanın yardımı olmadan tarixi Azərbaycan torpaqlarında erməni dövləti qurulmasının mümkünsüzlüyünü Şaamiryan çox gözəl başa düşürdü. Buna görə də o, Rusiya hakimiyyət orqanları ilə əlaqə yaratmağa çalışır, hətta rus-erməni birliyini möhkəmləndirmək üçün Mədrəsdə yaşayan ermənilərin Qızlara köçüb Rusiyanın himayəçiliyi altında yaşamasını təklif edirdi.

Hər iki layihədə qurulacaq erməni dövləti ilə Rusiya imperiyası arasında qarşılıqlı münasibətlər məsələsində fərqlər var idi. "Şimal layihəsi"ndə erməni dövlətinin birbaşa Rusiyanın vassal asılılığında olması, erməni çarının rus imperatoru tərəfindən təyin edilməsi və bu dövlətin ərazisində daimi rus ordusunun saxlanması nəzərdə tutulurdu. "Cənub layihəsi"ndə isə erməni dövlətinin Rusiyadan asılılığı illik ödənc verməsi və müharibə zamanı müəyyən hərbi qüvvənin çıxarılması kimi müəyyən edilmişdi. Göründüyü kimi, Ş.Şaamiryan gələcək erməni dövlətinin siyasi quruluşunu mütləq monarxiya deyil, burjua Respublikası formasında və Rusiyadan asılılğını yalnız xərac verməkdə görürdü. Cüzi fərqlərə baxmayaraq hər iki layihəni eyni fikir birləşdirirdi: ermənilərə dövlət yaradılması planı yalnız çar Rusiyasının hərbi yardımı ilə və əsasən Azərbaycan torpaqlarının zəbt olunması hesabına həyata keçrilməli idi.

Lakin, XVIII yüzilliyin 80-ci illərinin ortalarında İranın şərqində hakimiyyəti ələ almış Əlimurad xanla danışıqlara başlayan Rusiya hakim dairələri Cənubi Qafqazı hərb yolu ilə deyil, onlar üçün daha çox sərfəli olan sülh yolu ilə ələ keçirmək siyasəti yürütməyə başladı. Çar Rusiyasının bu siyasəti erməniləri öz niyyətlərini həyata keçirmək üçün bu dəfə gürcülərlə yaxınlaşmağa sövq etdi. Bu səbəbdəndir ki, Ş.Şaamiryan II İrakliyə məktubunda *"Rusi-*

---

[128] Bax: Nəcəfli G. XVIII əsrdə.., s.122.

*yanın yardımı ilə müstəqil gürcü-erməni dövlətinin yaradılacağına"* ümid etdiyini bildirirdi.[129]

XVIII əsrin ikinci yarısında Rusiya imperiyası Cənubi Qafqazda fəal müstəmləkəçi siyasətini axıra qədər davam etdirə bilmədiyinidən ermənilərin Azərbaycan torpaqları hesabına dövlət yaradılması məqsədilə tərtib etdiyi layihə və hərbi planlar bu dövrdə reallaşmadı.

***"XVIII əsrin II yarısında çar Rusiyasının Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq planları"*** adlanan dördüncü fəsil üç yarımfəsildən ibarətdir. "*Beynəlxalq vəziyyətin çar Rusiyasının Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq fəaliyyətinə təsiri"* adlanan I yarımfəsildə XVIII əsrin II yarısında beynəlxalq vəziyyətin çar Rusiyasının Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyətinə təsiri nəzərdən keçirilir.

*"II Yekaterinanın Cənubi Qafqaz siyasəti: ermənilər vasitə kimi*" adlanan II yarımfəsildə 1779-cu ilin sonlarından başlayaraq rus qoşunlarının Cənubi Qafqaza hərbi yürüş planlarının hazırlanması; 1782-ci ilin payızında Peterburqda Xəzərsahili vilayətlərin ələ keçirilməsi ilə Cənubi Qafqazda Rusiya təsirinin möhkəmləndirilməsi; İrana və Türkiyəyə qarşı Cənubi Qafqazda Rusiyanın siyasi və strateji forpostuna çevriləcək iki vassal xristian dövlətə – Gürcüstan və qurulacaq "Ermənistan"a arxalanmağın qərara alınması; knyaz Q.Potyomkinin Qafqaz işləri üzrə baş komandan, onun qohumu general P.Potyomkinin isə Qafqaz müdafiə xəttinin rəisi təyin edilməsi; dövlətin tapşırığına əsasən P.Potyomkinin hər şeydən öncə gürcü çarı II İrakli və ermənilərlə əlaqələr qurması və s. planlar araşdırılmışdır.

1783-cü il martın 28-də Peterburqda Xarici İşlər kollegiyasının növbəti iclasında Rusiyanın Cənubi Qafqaz siyasətinin məqsədi: *"Xəzər dənizinə yiyələnməli", "gürcü və ermənilərlə ittifaq yaratmalı"* şəklində ifadə olunmuşdu.[130] Bu münasibətlə Q.Potyomkinin knyaz A.Bezborodkoya yazdığı məktubunda qeyd olunurdu ki,

---

[129] Армяно-русские отношения XVIII веке.., с.9; Nəcəfli G. XVIII əsrdə.., s.126.

[130] Наставление князя Г.А.Потемкина генералу П.С.Потемкину // АВПРИ, фонд. №5 "Секретные мнения КИД", опис 5, част 1, (1783-1787 гг.) дело 580, – лл.117; Nəcəfli G. XVIII əsrdə.., s.126.

II Yekaterinaya təqdim olunan xəritəyə uyğun olaraq biz yalnız Bakıya qədər əraziləri tutacağıq. Qarabağ və Qaradağdan ibarət olan ərazilər isə İraklinin çarlığı ilə birgə "Türkiyə Ermənistanı" ilə birləşəcəkdir.[131]

Yarımfəsildə 1783-ilin aprel-may aylarında II Yekaterinanın Q.Potyomkin vasitəsilə P.Potyomkinə verdiyi məxfi sərəncamları – Şuşalı İbrahim xanın devrilməsi, Qarabağda yalnız Rusiyadan asılı olan erməni vilayətinin təşkil edilməsi; bu vilayətin təşkili üçün bütün imkanlardan istifadə edilərək çox sayda ermənin Qarabağa yerləşdirilməsi və vilayətinin idarəsinin xristian məliklərinə verilməsi; imperatriçənin ermənilərə verdiyi vədinə uyğun olaraq Q.Potyomkin vasitəsilə ermənlərə çatdırılacaq xristian dövlətinin yaradılması; Rusiyanın ali himayəsi altında Asiyada və Qarabağ ərazisində güclü xristian dövləti yaradılması üçün ermənilərin həmişə diqqət mərkəzində saxlanılması ilə bağlı faktlar zəngin materiallar əsasında tədqiq edilmişdi.[132]

1783-cü ilin mayında knyaz Potyomkin general Potyomkinə belə bir göstəriş vermişdi: "*Rusiyanın Ermənistan* (sənəddə İrəvan xanlığının ərazisi bu ad altında təqdim edilir – G.N.) *və Qarabağdakı tədbirləri ilə bağlı erməniləri həmişə hazır saxlamaq lazımdır və Rusiyanın ali himayəsi altında Asiyada erməni və Qarabağ ərazilərindən ibarət güclü xristian dövləti yaratmaq üçün erməniləri*

---

131 Письмо Г.А.Потемкина Таврическому князю А.А.Безбородко // АВПРИ, фонд. №5 "Секретные мнения КИД", опис 5, част 1, (1783-1787 гг.) дело 582, – лл.103-106; Махмудов Я.М., Наджафли Г.Дж. Игры великих держав по созданию армянского государства на территории Азербайджана. / Я.М.Махмудов, Г.Дж. Наджафли. – Бишкек: «Улуу Тоолор», – 2021. – 392 с, с.201.

132 Bax: Из ордера Г.А.Потемкина П.С.Потемкину (6 апреля 1783 г.) // РГВИА, фонд. №52, оп.2/203, дело 90, – лл.8-8об; Донесения князя Потемкина о резолюции про Ибраим хана Шушинскаго, о докторе Рейнегсе и о Фатали хане, от 19 мая 1783 г. Херсон // РГВИА, фонд. №52, оп.1/194, дело 32, – лл.1а-1аоб;. Маркова О.П. Россия, Закавказе и международные.., – с.185; Mustafazadə T.T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində.., s.60; Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri., s.91-92.

*əzizləmək lazımdır"*[133]

1783-cü ilin sonlarında Rusiya sarayında Cənubi Qafqazı, o cümlədən, Azərbaycan torpaqlarını ələ keçirmək və erməni dövləti yaradılması ilə bağlı planların daha da intensivləşdiyini izləmək mümkündür. Həmin dövrdə rus qoşunlarının Cənubi Qafqaza müdaxiləsi üçün 2 istiqamət – *birinci, Dərbənd və Xəzər dənizi sahilləri ilə Ənzəliyə kimi; ikinci isə, Gürcüstandan Qarabağa və oradan Qaradağa hücum etməklə bu yürüşün İrəvanın zəbti ilə başa çatdırılması* nəzərdə tutulurdu. Rusiya hakim dairələri Osmanlı dövləti ilə müharibə reallaşmazsa başlıca fəaliyyəti İrəvanın tutulması və erməni dövlətinin yaradılmasına yönəltməyi planlaşdırmışdı.[134]

Bölgədə erməni əhalisinin sayı cüzi olduğu üçün hər iki tərəf – həm çar Rusiyası, həmdə ermənilər digər xristian inanclı əhalidən yararlanmağa çalışırdı. Qarabağ xanlığının xristian məliklərindən istifadə edilməsi, onların müxtəlif yollarla ələ alınması hər iki tərəfin diqqət mərkəzində idi. Məsələn, general Potyomkin knyaz Potyomkinə məxfi məktubunda Qarabağ məliklərinin hər birinə bir qızıl saat göndərdiyini və bunun üçün 385 rubl[*] xərclədiyi, hədiyyəni çatdırana isə 100 rubl verildiyini yazırdı.[135]

İ.Arqutinski isə knyaz Potyomkinə ünvanlandığı 10 sentyabr 1784-cü il tarixli məktubunda yazırdı: "*Şuşa xanı İmperatriçənin himayəsinə qəbul edilərsə, onda mən təvazökarlıqla bizim məliklərin* (Qarabağ məlikləri – G.N.) *xüsusi bir qurum kimi Rusiya himayəsinə qəbul olunmalarını xahiş edirəm".*[136]

---

[133] Докладная записка П.С.Потемкина Г.А. Потемкину (мая 1783 г.) // РГВИА, фонд. №52, оп.2/203, дело 29, – л.31 – *surəti:* AMEA TİEA, fond. №1795 /3/ – c.751.

[134] Реляция Г.А.Потемкина Екатерине, г.Дубровна // АВПРИ, фонд. №77 "СРП" оп.6. 1784 г. дело 469, – л.1-2; Армяно-русские отношения XVIII веке.., с.299.

[*] Həmin dövrdə 1 pud (16 kq) unun qiymətinin 86 qəpik olduğunu nəzərə alsaq, Rusiya hakim dairələrinin Qarabağ məliklərinə xərclədiyi vəsaitin dəyərini təsəvvür etmək mümkündür.

[135] Рапорт по секрету П.С.Потемкина Г.А.Потемкину (15 ноября 1783 г.) Георгиевская крепость // РГВИА, фонд. №52, оп.1/194, дело 286, ч.1. – л.1-2.

[136] Письмо Иосифа Аргутинского Г.А.Потемкину (10 сентября) // РГАДА, ф.15, Разряд XV, Дипломатический отдель, оп.1, дело 149, л.196.

Rusiya hakim dairələrinin tərtib etdiyi yürüş planlarının əksəriyyətində erməni dövləti yaradılması labüd sayılsa da, bu dövlətinin konkret olaraq hansı ərazidə qururulması, hansı idarəçilik formasında olması və İrəvan xanlığının bu dövlətin tərkibinə qatılıb-qatılmaması barədə konkret fikrinin olmadığı məlum olur.

*"II Yekaterinanın Cənubi Qafqaz siyasətində son təşəbbüslər, Valerian Zubova verilən məxfi təlimatlar"* adlanan III yarımfəsildə Yassı müqaviləsindən sonra Cənubi Qafqazda geniş fəaliyyət imkanı əldə edən çar Rusiyasının Xəzərsahili vilayətləri yenidən zəbt etmək planlarını həyata keçirmək təşəbbüsləri izlənilir.

1796-cı ildə V.Zubovun Azərbaycana işğalçı yürüşü zamanı çar Rusiyasının 1783-cü ildə olduğu kimi, Qarabağ xanlığı ərazisində xristian dövləti qurmağı təkrar planlaşdırdığı müəyyən edilmiş, Peterburqdan *"Qarabağ xanlığını devirmək və hakimiyyəti yerli xristianlara vermək"* barədə V.Zubova məxfi göstərişin verildiyi tədqiq edilmişdi. [137]

***"XIX əsrin I qərinəsində çar Rusiyası və ermənilərin Azərbaycanda fəaliyyəti"*** adlanan V fəsil 4 yarımfəsildən ibarətdir. *"Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı prosesində "erməni amili"* adlanan I yarımfəsildə Rusiya imperiyasının XIX əsrin ilk sülsündə Azərbaycan torpaqlarının işğalı üçün Qacarlar dövləti ilə apardığı müharibənin gedişində "erməni amili"ndən kifayət qədər yararlanmaq siyasəti araşdırılmışdır. Eyni zamanda, Azərbaycan xanlıqlarının işğalının başa çatmasından ruhlanan ermənilərin özlərinə dövlət qurmaq üçün daha geniş ərazilərə iddiasını izləmək mümkündür. Məsələn, X.Lazarev çar məmurlarına təqdim etdiyi layihəsində (27 dekabr 1827) işğal edilmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisi ilə kifayətlənməyərək Şəki, Şamaxı və Qarabağ xanlıqlarının da yaradılacaq erməni dövlətinin tərkibinə qatılmasını istəyirdi. [138]

*"Şimal-Qərbi Azərbaycan torpaqlarında Erməni vilayətinin*

---

[137] Инструкция генералу В.А.Зубову (19 февраля 1796 г.) // РГВИА, фонд. №846 (ВУА), оп.16, дело 2799, – лл.1-7об – *surəti:* AMEA, TİEA, fond. RİƏ, 1787-1800, c286.

[138] Сведения полученные через Армян о Персии и Грузии (27 февраля 1828 г.) // РГВИА, №846 (ВУА), оп.16, дело 4338, – лл.72-73.

*yaradılması və bu tədbirin nəticələri"* adlanan II yarımfəsildə işğal olunmuş Azərbaycan torpaqlarında Erməni vilayətinin yaradılması, mahiyyəti və nəticələri tədqiq edilmişdir. İşğal olunmuş Azərbaycan torpaqlarında Rusiyanın mənafeyinə uyğun gələn yeni bir inzibati qurumun – Erməni vilayətinin yaradılması, bölgənin erməniləşdirilməsi istiqamətində fəaliyyətin genişləndirilməsi tədbirləri tədqiq edilmişdir.

*"Ermənilərin Qacarlar İranından Şimali Azərbaycan torpaqlarına məqsədli şəkildə köçürülməsi"* adlanan III yarımfəsildə İrandan köçürülən ermənilərin İrəvan, Naxçıvan və Qarabağ bölgəsnə yerləşdirilməsinin xüsusi göstəriş olduğu; verilən təlimatların pozularaq ermənilərin zorla köçürdüyü; Marağa, Təbriz, Xoy, Səlmas, Urmiya, Dilman bölgələri ilə bərabər İran Kürdüstanı adlandırılan ərazidə yaşayan ermənilərin də işğal edilmiş Azərbaycan torpaqlarına köçürülməsi faktları[139] aşkar edilmişdi.

*"Ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına məqsədli şəkildə köçürülməsi"* adlanan IV yarımfəsildə Osmanlı ərazisində yaşayan ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi yeni qaynaqlar əsasında araşdırılmışdır. Ermənilərin köçürülməsi zamanı könüllülük prinsipi pozulmuş, onların məcburi köçürülməsi üçün Osmanlı dövləti ərazisində olan nüfuzlu rus hərbçilərdən və yerli erməni keşişlərindən istifadə edilmişdir. Osmanlı dövləti köçürmənin qarşısını almaq məqsədilə Rusiya işğalları zamanı ermənilərin öz dövlətinə etdiyi xəyanətin, törətdiyi vəhşiliklərin bağışlanması barədə "Əfvnamə"lər (1830 fevral) versə də,[140] köçürmənin qarşısını ala bilməmişdi. Ermənilərin Osmanlı imperiyasından İrəvan bölgəsinə köçürülməsinin XIX əsrin 30-40-cı illərində hələ də davam etməsi yeni arxiv sənədləri əsasında öz təsdiqini tapmışdır. [141]

---

[139] Neumann F. Geschichte der Übersiedlung.., S.54-55.

[140] Serasker Osman Paşa'nın kaimesi //BOA, Hatt-i Hümayun fondu, №1043/43153; №1043/43153D; Beydilli K. 1828-1829 Osmanlı-Rus Savaşı'nda.., s.387.

[141] Выписка из отношении Ген.фелд маршала графа Пакевича Эриванского генерал-Адютанту князю Ливену от 8-го августа №256 // АВПРИ, ф.343 "Армянские дела", оп.46, дело 5. – л.л.25-25об, 26-26об.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunmuş əsas elmi-nəzəri qənaətlər ümumiləşdirilmişdir:

– Cənubi Qafqazda erməni dövləti yaratmaq ideyası çar Rusiyasının həqiqi planı deyildi. İmperiya özünün strateji planlarını reallaşdırmaq, Cənubi Qafqazı, o cümlədən Azərbaycan xanlıqlarını işğal etmək və bu torpaqlarda möhkəmlənmək üçün ermənilərdən bir alət kimi istifadə etmişdi;

– Ermənilər zaman-zaman ərazisində yaşadıqları bir çox dövlətlərə məxsus torpaqları özününküləşdirərək saxta "erməni tarixi" qurmuşlar. "Erməni dövləti" anlayışının mahiyyətinə gəldikdə, onların təqdim etdikləri dövlət və ya dövlət qurumları nə sabit tarixi coğrafiyaya, nə də ənənəyə malik olmuşdur. Ona görə də tarixdə quraşdırılan "erməni dövləti və ya dövlət qurumları"nın çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında qurmağı planlaşdırdığı dövlətlə ərazi və hüquqi-siyasi varislik baxımından heç bir əlaqəsi olmamışdır;

– Məqsədləri üçün hər fürsətdən yararlanmağa çalışan ermənilər Osmanlı və Səfəvi dövlətlərinə qarşı mübarizədə özlərini təqdim etmək üçün öncə Qərbi Avropaya üz tutmuş, lakin burada uğur əldə etməmişlər.

– Azərbaycan xanlıqlarına məxsus torpaqların erməni torpaqları kimi təqdim edilməsi, xanlara qarşı mübarizədə özlərinə dayaq yaratmaq məqsədi güdən ermənilər XVIII əsrdə Rusiya çarlarına üz tutaraq burada təşkilatlana bilmişlər;

– Mövzu ilə bağlı müxtəlif dillərdə olan ilkin mənbələrdəki onomastik vahidlər, Qarabağın xristian-alban məliklərinin adından erməni dilində hazırlanmış məktublardakı etnik kimlik məsələsi ermənilər tərəfindən rus dilinə tərcümə edilərkən ciddi şəkildə saxtalaşdırılmışdır;

– XIX əsrin ilk sülsündə Çar Rusiyasının Şimali Azərbaycan torpaqlarının işğalını başa çatdırması, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının torpaqlarında Erməni vilayətinin yaradılması və buraya Qacarlar və Osmanlı dövlətləri ərazilərindən ermənilərin kütləvi şəkildə köcürülməsi ilə gələcəkdə Şimali Azərbaycan torpaqlarında

erməni dövləti qurulmasına zəmin hazırlamış oldu.
– Yerli türk-müsəlman əhalisi üçün ağır olan bu prosesin nəticəsində ermənilər Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşdılar və burada özlərinə daimi məskənlər qura bilmişdilər.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. – Bakı: "Nurlan", – 2007. – 246 s.
2. Азербайджан в XVIII-XIX веках. – Бишкек: «Бийиктик», – 2010. – 260 s.
3. XVIII. asırda Azerbaycan torpaklarında ermeni devleti kurma teşebbüsleri. (Aktaran Dr. Sebahettin Şimşir). İkinci baskı. – İstanbul: "İQ Kültür Sanat Yayıncılık", – 2014. – 238 s.
4. XIX The relocation of Armenians to the lands of North Azerbaijan in the 19th century is an historical truth (together with academician Y.Mahmudov). – Baku: "Turxan", – 2020. – 110 p.
5. Переселение армян на земли Северного Азербайджана в XIX веке – неопровержимая правда истории (Совместно с Я.М. Махмудовым). – Баку: "Турхан", 2020. –110 с.
6. Игры великих держав по созданию армянского государства на территории Азербайджана (Совместно с Я.М. Махмудовым). – Бишкек: «Улуу Тоолор», – 2021. – 392 с.
7. I Pyotrun dövründə erməni "xadimləri"nin Azərbaycan ərazisində dövlət yaratmaq cəhdləri (Q.A.Ezovun "Böyük Pyotrun erməni xalqı ilə münasibətləri" əsəri üzrə). // – Bakı: AMEA Xəbərləri (humanitar və ictimai elmlər seriyası), – 2003. №1-4, – s.38-48.
8. Attempts of Armenians to establish state on the territory of Azerbaijan in the first quarter of 18th century (from materials of "Peter the Great's relations with Armenian people" book after G.A.Ezov). // – Баку: "Ажербайджан и азербайджанцы", – 2005. №1-6, – с.49-60.
9. XVIII əsrdə Şərqi Anadoluda erməni dövləti yaradılması cəhdləri. // – Bakı: AMEA-nın Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, – 2008. №8, – s.22-32.
10. Ermənilərin Naxçıvanı ələ keçirmək üçün tərtib etdiyi layihələr (XVIII əsr). // – Naxçıvan: "Naxçıvan bu gün: islahatlar, perspektivlər", – 2008. – s.105-111.

11. Ermənilərin Azərbaycanın Şamaxı şəhərini ələ keçirmək üçün tərtib etdiyi layihələr (XVIII). // – Bakı: AMEA Tarix İnstitutu "Elmi Əsərlər", №28, – 2009. – s. 141-147.
12. I Pyotrun erməniləri Azərbaycanın Xəzərsahili bölgələrinə köçürmək planları. Bakı, 2010. // – Bakı: AMEA Tarix İnstitutu "Elmi Əsərlər",– 2010. №33, – s. 95-114.
13. Проекты создания армянского государства на территории Азербайджана во II половине XVIII века. // – Тифлис: Кафказ и мир. Международный научный журнал, – 2010, №8, – с. 128-135.
14. Çar Rusiyasının Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq siyasəti. // – Bakı: AMEA Tarix İnstitutu "Elmi Əsərlər", – 2011. №38, – s. 84-97.
15. Çar Rusiyasının Azərbaycanda və Şərqi Anadoluda erməni dövləti yaratmaq siyasəti //"Azərbaycan Respublikası uğurlar və perspektivlər" mövzusunda 16 noyabr 2011-ci il tarixində keçirilmiş beynəlxalq elmi konfransın materialları. – Bakı: AMEA Tarix İnstitutu və Azərbaycan Tarix Qurumu. Xüsusi buraxılış, – 2012. – s. 82-88.
16. Azərbaycanın İrəvan şəhəri XVIII əsrdə // Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı. – Bakı: Beynəlxalq konfransın materialları, – 2012. – s. 484-491.
17. Azərbaycan torpaqlarının erməni kilsəsi tərəfindən ələ keçirilməsi // – Bakı: AMEA Tarix İnstitutu "Elmi Əsərlər", – 2012. №41-43, – s. 60-73.
18. Çar Rusiyasının İrəvan xanlığı ərazisində erməni dövləti yaratmaq siyasəti // – Bakı: "Geo-Strategiya",– 2013. №4 (16) iyul-avqust, – s. 34-40.
19. Первоначальные факторы, способствовавшие попыткам создания армянского государства на территории Азербайджана. // – Тифлис: Кафказ и мир. Международный научный журнал, – 2013. №16, – с.81-86.
20. Восточная политика Екатерины II и попытки создания армянского государства на Южном Кавказе (60-80-е гг. XVIII в.). // – Москва: Современная научная мысль, –2013, №5, – с. 22-39.
21. Çar Rusiyasının Azərbaycan ərazisində erməni dövləti yaratmaq siyasəti (XIX əsrin I yarısı) // – Bakı: AMEA Tarix İnstitutu "Elmi Əsərlər". "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların

nəticələri” mövzusunda beynəlxalq elmi konfransın materialları. Xüsusi Buraxılış, – 2013, №44,45,46,47, – s. 137-142.
22. Şimali Azərbaycan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalında ermənilər vasitə kimi // – Bakı: “Geo-Strategiya”, – 2014, №01(19) yanvar-fevral, – s. 33-37.
23. Karabağda Ermeni Devletinin Kurulması için Ermenilerin Çarlık Dönemindeki Girişimleri / – İstanbul: “Dağlık Karabağ Üzerine Yazılar”, “Çağaloğlu”, – 2014. – s. 133-138.
24. Karabağ Topraklarında Ermeni Devleti kurulması Faaliyyetlerinin ilk Amilleri // “Azerbaycan ve Dağlık Karabağ Üzerine Analizler”, – İstanbul, “Çağaloğlu”, – 2015. – s.141-151.
25. XVIII. Asrda Çarlık Rusyasının Azerbaycan Topraklarında Ermeni Devleti Kurma Polıtıkası // – Ankara: “Yenı Türkıye”, (Kafkaslar özel saysı-VIII), –2015. №77, Temmuz-Aralık, – s. 50-76.
26. İrevan Hanlığının Çarlık Rusyası Tarafından İşğalinde Ermeni Amili // – Ankara: “Yenı Türkıye”, (Kafkaslar özel saysı-VIII), – 2015. №78 Temmuz-Aralık, – s. 680-689.
27. Ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına məqsədyönlü şəkildə köçürülməsi (yeni qaynaqlar işığında), //– Bakı: Geo-Strategiya, – 2015. №06(30) noyabr-dekabr, – s. 26-31.
28. Ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsinə dair. // – Bakı: Journal of Kavkaz Unversity -History Lawand Political Siences, – 2015. – s. 3-14.
29. Ermənilərin İrandan Şimali Azərbaycan torpaqlarına məqsədyönlü şəkildə köçürülməsi (yeni qaynaqlar işığında). // – Bakı: Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), – 2015. №03, – s. 68-77.
30. Çar Rusiyasının Şimali Azərbaycanda erməni dövləti yaratmaq siyasətinin mənbələrinə dair. // – Bakı: AMEA Milli Tarix Muzeyi, – 2015. – s. 88-100.
31. II Yekaterinanın Cənubi Qafqaz siyasəti: ermənilər vasitə kimi // – Bakı: AMEA Xəbərlər. İctimai Elmlər Seriyası, – 2016. №01, – s.141-152.

32. Tarixdə erməni dövləti anlayışı və onun Azərbaycan torpaqlarında qurulması planına dair // – Bakı: AMEA Xəbərlər. İctimai Elmlər Seriyası, – 2016. №03, – s. 96-105.
33. Azərbaycan torpaqlarında erməni dövləti yaradılması məqsədilə tərtib olunan layihələr (XVIII əsrin I rübü). // – Bakı: Geo-Strategiya, – 2016. №02(32) mart-aprel, – s. 23-27.
34. Çarlık Rusyası'nın Güney Kafkasyayı İşğalinde Ermeni Faktörü // Atatürk ve Türk Kültür Coğrafyasında Kafkasya ve Çevresi. VIII. Uluslararası Atatürk Kongresinin Materialları, – Ankara: 2017. I cilt, – s. 429-454.
35. «Предпосылки создания государства для армян на землях Азербайджана» // – Москва: Вопросы истории, – 2019. № 2, – с. 94-101.
36. Çarlık Rusyası'nın Ermenileri Azerbaycan Topraklarına Göç Ettir-mesi (Rusya Arşiv Kaynakları Işığında). // – Ankara: 18.Türk Tarih Kongresi. Bildiri Metnleri, – 2022. – s. 285-313.
37. Şuşa tarixinin saxtalaşdırılmış səhifələrinə dair // "Tarixi yerlər və abidələr IV Beynəlxalq Şuşa Simpoziumu"nun materialları, – Bakı: – 2022. – s.280-287.
38. Çarlık Rusyası ve Ermenilerin Planlarında Karabağ Hanlığı (XVIII. Yüzyılın 60-80-li yılları) // Kadim Vatan Karabağ (Karabağ Savaşı Şehit ve Gazilerine), – İstanbul: "Divan Kitap, II", – Aralık 2022. – s.399-408.
39. Qarabağın xristian alban məliklərinin etnik kimliyinin ermənidilli tarixşünaslıqda əksi // AMEA Sosial Elmlər, №2, – Bakı: – 2023. – s. 56-64.

Dissertasiyanın müdafiəsi 28 mart 2024 –cü il tarixində saat 10⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan:Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 fevral 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.02.2024

Kağız formatı: 60x84 $^{1}/_{16}$

Həcmi: 86.556

Nüsxələrin sayı: 100